Rəsmi dövlət qəzeti

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 197 (7924) ÇƏRŞƏNBƏ, 5 sentyabr 2018-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az | Qiyməti 40 qəpik



## "AZƏRBAYCAN"- 100



# İSTİQLALIMIZIN YADİGARI, HƏMYAŞIDI VƏ TƏRƏNNÜMÇÜSÜ

**1918-ci ilin 28 mayı Azərbaycan tarixinin dan yeridir. Həmin gün qaranlıqlar söküldü və Azərbaycan Xalq Cümhuriyyəti adlı bir günəş parladı. Bu millət uzun illərdir o işığa həsrət, o aydınlığa təşnəydi. Azadlığını, dövlətinin müstəqilliyini əlindən alanlar, məmləkətini işğal edərək torpaqları ilə bərabər ürəyini də ikiyə bölənlər bəsirət gözünü bağlamaq, tərəqqiyə aparan yolunu zülmətə boyamaq, arzularını, ümidlərini qaraltmaq üçün illərdir səylərini əsirgəmirdilər.**

### Düşmənləri amansız Vətən...

Bu millətin azadlıq işığını söndürmək istəyənlər çox oldu. Torpaqlarını işğal etmək, müstəmləkə boyunduruğuna salmaq üçün tarixin ayrı-ayrı dönəmlərində amansız müharibələr baş verdi. Azərbaycana zaman-zaman dəhşətli faciələr yaşatdılar. XIX əsrin əvvəllərində Rusiya-İran müharibələrinin ən böyük ağrısını da bu millətə çəkdirdilər. İmzaladıqları iki müqavilə - 1813-cü ilin "Gülüstan", 1828-ci ilin "Türkmənçay" müqavilələri ilə Azərbaycan xalqının ayrılıq hökmünü verdilər. Məmləkətimizi böldülər, şimal hissəsinə Rusiya, cənubuna İran sahibləndi. Müstəmləkə buxovu vurub tərəqqi yollarını da ləngitdilər. Ancaq bu millətin gözünün odunu almaq, əsarətə boyun əydirmək asan olmadı. Azərbaycanda milli kimlik, milli özünüdərk hissləri getdikcə gücləndi.

Sıraları genişlənən Azərbaycan ziyalıları da mübarizələrini ilk vaxtlarda, əsasən maarifin, təhsilin, elmin, səhiyyənin, ədəbiyyatın, mətbuatın... inkişafı uğrunda çalışmaları ilə ifadə edirdilər. Onlar əmin idilər ki, soydaşlarının böyük əksəriyyətinin başına gətirilən bəlaların mahiyyətinə varmaq iqtidarında belə olmamasının, səfalətə sürüklənməsinin, əsarətə boyun əyməsinin başlıca səbəblərindən biri cahillikdir. Odur ki, millətdaşlarının öz hüquqlarını, haqlarını tələb edəcək səviyyəyə çatmaları üçün savadlanmalarını ön plana çəkirdilər. Buna görə Azərbaycan ziyalıları yeni üsullu, dünyəvi elmlərin tədris olunduğu məktəblərin açılması üçün xüsusi fəallıq göstərirdilər. Amma millət övladlarının maariflənməsi, gözləri açılaraq yaxşını pisdən ayırması yolunda digər vasitələrin də əhəmiyyəti unudulmurdu. Mətbuat orqanlarının yaradılması, kitabxanaların, qiraətxanaların, mətbəələrin açılması kimi mühüm işlər planlaşdırılır, çarizmin müvafiq idarələrinə müraciətlər edilirdi.

Böyük əraziləri zəbt etmiş çar Rusiyasının müstəmləkəsi altında olan ölkələrə ögey münasibəti göz önündə idi. Bu da aşkar idi ki, dili, dini ayrı millətlər daha çox haqsızlıqla üzləşir, tərəqqisinə maneələr yaradılırdı. Ancaq çar üsuli-idarəsindən narazı qalanlar yalnız müstəmləkə ölkələrinin əhalisi deyildi. Hələ 1825-ci ilin 14 dekabrında Rusiyada tarixə Dekabristlər üsyanı kimi daxil olmuş inqilabi hərəkat baş vermişdi. Böyük Fransa inqilabından təsirlənmiş gənc hərbçilər o zaman taxta çıxan I Nikolaya and içmədilər.

Ardı 4-cü səh.

# İlham Əliyevin birlik təşəbbüsü türkdilli ölkələrin həmrəylik hərəkatına çevrilir

## Azərbaycan Prezidentinin təklifi ilə Naxçıvanda təsis olunan TDƏŞ Avrasiyada mükəmməl əməkdaşlıq formatı kimi özünü təsdiq edir



**Ortaq mədəni və mənəvi dəyərlərlə bir-birinə bağlı olan türk xalqlarının və dövlətlərinin sıx və səmərəli əməkdaşlığı, həmrəy olmaları qloballaşan, sürətlə dəyişən dünya nizamında mühüm əhəmiyyət kəsb edir.**

Çünki bu, türk dövlətlərinin daha da möhkəmlənmələri, dünyada cərəyan edən proseslərə təsir göstərə bilmələri, öz milli maraqlarını müdafiə etmələri baxımından olduqca vacibdir. Azərbaycan türk cümhuriyyətləri ilə əlaqələrində məhz bu mövqedən çıxış edir və daim bu prinsiplərə sadiq qalır.

### Tarixi bağlılıqdan strateji tərəfdaşlığa doğru

Bu gün bütün dövlətlər sülhün və sabitliyin qorunması, eləcə də sosial-iqtisadi inkişafın və mədəni zənginliyin təmin olunması kimi müasir çağırışlarla üzləşirlər. Xarici siyasət konsepsiyasında türkdilli dövlətlərlə əlaqələrin bütün sferalar üzrə inkişaf etdirilməsini müəyyən edən Azərbaycan türkdilli dövlətlərin səylərinin birləşdirilməsini bu cür çağırışların vaxtında və effektiv cavablandırılması üçün önəmli vasitə hesab edir. Bu mənada 2009-cu il oktyabrın 3-də Naxçıvan şəhərində türkdilli ölkələrin dövlət başçılarının IX Zirvə toplantısı zamanı imzalanmış sazişə əsasən yaradılan Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası (TDƏŞ) mühüm əhəmiyyətə malikdir.

Naxçıvan sazişinə əsasən, türkdilli dövlətlər tarixi bağlara, ümumi dil, mədəniyyət və ənənələrə əsaslanaraq, hərtərəfli əməkdaşlığın dərinləşməsinə səy göstərərək, siyasi çoxqütblülük, iqtisadi və informasiya qlobalizasiyası proseslərinin inkişafı şəraitində regionda sülhün möhkəmləndirilməsini, təhlükəsizlik və sabitliyin təmin edilməsinə birgə töhfə verilməsini arzulayaraq, ümumi qurum çərçivəsində qarşılıqlı əlaqənin dövlətlər və onların xalqları arasında xoş qonşuluq, vahidləşmə və əməkdaşlıq üçün geniş potensialdan faydalanmağa şərait yaratdığını hesab edərək TDƏŞ formatında əməkdaşlıq mexanizmini yaradıblar. Azərbaycan, Qazaxıstan, Qırğızıstan və Türkiyə təşkilatın təsisçi üzvləridir.



TDƏŞ-in əsas məqsəd və vəzifələri tərəflər arasında qarşılıqlı etimadın möhkəmləndirilməsi, regionda və dünyada sülhün bərqərar olunması, xarici siyasət məsələlərinə ortaq yanaşmanın təşviqi, ortaq maraq kəsb edən bütün sahələrdə regional və ikitərəfli əməkdaşlığın gücləndirilməsi, beynəlxalq terrorizm, separatçılıq, ekstremizm və transmilli cinayətkarlığa qarşı mübarizənin əlaqələndirilməsi, elm, texnologiyalar, təhsil və mədəniyyət sahəsində qarşılıqlı əlaqələrin genişləndirilməsi, ticarət əlaqələri və investisiyalar üçün əlverişli şəraitin yaradılması və sairdir.

Yarandıqdan sonra TDƏŞ-in 6 Zirvə görüşü keçirilib. Birinci Zirvə görüşü "İqtisadi əməkdaşlıq" mövzusu adı altında 20-21 oktyabr 2011-ci il tarixlərində Almatı şəhərində baş tutub. İkinci Zirvə görüşü 22-23 avqust 2012-ci il tarixlərində Bişkekdə keçirilib. Zirvə görüşünün mövzusu "Təhsil, elm və mədəniyyət sahəsində əməkdaşlıq" olub. Üçüncü Zirvə görüşü 15-16 avqust 2013-cü il tarixlərində Qəbələ şəhərində keçirilib. Bu dəfə mövzu "Nəqliyyat və bağlantı" idi. Dördüncü Zirvə görüşü "Turizm sahəsində əməkdaşlıq" mövzusu adı altında 4-5 iyun 2014-cü il tarixlərində Bodrum şəhərində baş tutub. Beşinci Zirvə görüşü isə 10-11 sentyabr 2015-ci il tarixlərində "Media və informasiya sahəsində əməkdaşlıq" mövzusu adı altında Astana şəhərində keçirilib.

### Azərbaycan türk birliyinə böyük töhfələr verir

Sentyabrın 3-də Qırğız Respublikasının Çolpon-Ata şəhərində TDƏŞ-in VI Zirvə görüşü keçirilib. Budəfəki Zirvə görüşünün özəlliyi onda idi ki, Azərbaycan, Qazaxıstan, Qırğızıstan və Türkiyə prezidentləri ilə yanaşı, Özbəkistan Prezidenti Şavkat Mirziyoyev və Macarıstanın Baş naziri Viktor Orban da tədbirdə iştirak edirdilər. Özbəkistan və Macarıstanın da görüşdə iştirak etməsi təşkilatın fəaliyyətinin genişlənməsinin və həmrəyliyin gücləndirilməsinin göstəricisidir. Təşkilatın güclənməsi isə təbii ki, üzv-dövlətlərin qarşıya qoyduqları hədəflərə çatmalarına mühüm töhfələr verəcək.

Prezident İlham Əliyev çıxışında öncə onu qeyd etdi ki, Azərbaycan bütün türkdilli dövlətlərlə sıx əlaqələr saxlayır: *"Bu əlaqələr gündən-günə möhkəmlənir və genişlənir. Bizim əlaqələrimiz siyasi, iqtisadi, ticarət, energetika, nəqliyyat, humanitar sahələri əhatə edir və biz bütün istiqamətlər üzrə gözəl nəticələr görürük. Ölkələrimiz beynəlxalq təşkilatlarda da bir-birinə dəstək verir və bu dəstək çox önəmlidir. Hesab edirəm ki, gələcək illərdə beynəlxalq təşkilatlar çərçivəsindəki fəaliyyətimizlə bağlı əlavə addımlar atılacaqdır".*

Ümumiyyətlə, Azərbaycan Respublikasının xarici siyasətində türkdilli dövlətlərlə münasibətlər xüsusilə diqqəti cəlb edir. Təsadüfi deyil ki, respublikamız nəinki siyasi sferada, o cümlədən qlobal əhəmiyyət kəsb edən iqtisadi məsələlərdə türkdilli dövlətlərlə əməkdaşlığa, onların da beynəlxalq layihələrə cəlb olunmasına mühüm diqqət yetirir. Məsələn, Azərbaycanın təşəbbüsü ilə inşa edilən Bakı-Tbilisi-Qars dəmir yolu xətti Asiyanı Avropa ilə birləşdirən nəhəng infrastrukturdur. Artıq Azərbaycan, Qazaxıstan və Türkiyə bu yoldan istifadə edirlər. Gələcəkdə digər türkdilli dövlətlər də buna qoşula bilər. Eyni zamanda Azərbaycanın təşəbbüsü ilə reallaşan enerji layihələri dolayısı ilə türkdilli dövlətləri birləşdirir, Qazaxıstanın və Türkmənistanın ixrac imkanlarını artırır. Türkiyə isə tranzit ölkə kimi neft-qaz boru kəmərlərinin bəhrəsini görür. Bütün bunlar Azərbaycanın türk dünyasına böyük töhfələridir.

Ardı 3-cü səh.

# Dolların dünyada hökmranlığına son qoyula bilər

## "Antidollar koalisiyası"nın sıraları genişlənir, təşəbbüsləri reallaşır, fəaliyyətləri isə ilkin uğurlu nəticələr verir

**İkinci Dünya müharibəsindən sonra formalaşan yeni maliyyə sistemində ABŞ dolları getdikcə daha hökmran mövqelərə sahib olmağa başladı. SSRİ dağıldıqdan sonra öz təsirini bütün dünyaya yayan ABŞ dolları, demək olar, bütün ölkələrin iqtisadi münasibətlərində və maliyyə əməliyyatlarında xüsusi çəkiyə malikdir.**

ABŞ-ın qlobal üstünlüyü təkcə hərbi gücü və müttəfiqlər sistemi sayəsində deyil, həmçinin onun qlobal maliyyə sisteminin daxili strukturuna nəzarəti və xüsusilə də dolların geniş miqyasda dünyada ehtiyat valyuta kimi qəbul edilməsi sayəsində mümkün olmuşdur. ABŞ dollarının unikal statusu İkinci Dünya müharibəsindən sonra qlobal maliyyə sisteminin əsasını təşkil edir.

Ancaq son illər ABŞ hökumətinin dolların bu hökmranlığından siyasi məqsədlər üçün istifadə etməsi bir çox ölkələri ciddi seçim qarşısında qoymuşdur. Bəzi dövlətlərin milli valyutalarının süni şəkildə devalvasiyalara məruz qalması iqtisadi amillərlə izah olunmamağa başlamışdır.

Artıq iqtisadçılar arasında belə bir fikir formalaşır ki, yaxın illərdə ABŞ dolları onun dünyadakı hökmranlığının zəiflədilməsinə yönələn hücumlarla qarşılaşacaqdır. Və bu mübarizədə əsas döyüş meydanlarından biri enerji bazarı olacaqdır. Məhz bu bazarda oyun qaydalarının dəyişməsi ABŞ-ın iqtisadi üstünlüyünün gələcək taleyini həll edəcəkdir.

Ardı 3-cü səh.

# İlham Əliyevin yeni qələbəsi, Paşinyanın növbəti məğlubiyyəti

## Azərbaycan Prezidentinin Rusiyadan verdiyi mesajlar və V.Putinin birmənalı dəstəyi Ermənistanda şok effekti yaradıb

**Uğurlu inkişaf, həyata keçirilən və müvəffəqiyyətlər üzərində qurulan çoxvektorlu xarici siyasət bu gün dünya miqyasında Azərbaycanı əsas söz sahiblərindən birinə çevirib. Qeyd edilənlərin real təsdiqi Prezident İlham Əliyevin Rusiyaya son səfəri fonunda özünü yenidən qabarıq formada büruzə verdi.**

Dövlətimizin başçısının Soçi şəhərində Vladimir Putinlə apardığı müzakirələr, imzalanan sazişlərin məzmunu və əldə edilən nəticələr yenidən Azərbaycanın Cənubi Qafqazın lider dövləti olaraq qəbul edilməsini təsdiqləyir, ölkəmizin Rusiya ilə əməkdaşlığını strateji səviyyəyə yüksəltməkdə maraqlı tərəf kimi çıxış etdiyini göstərir. Eyni zamanda o da bəlli olur ki, Rusiya kimi dünya siyasətinin nizamını müəyyən edən ölkə Azərbaycanın mövqe və proseslərə yanaşmasını qiymətləndirir. Bu fonda təkcə regional yox, beynəlxalq səviyyəli məsələlər də Azərbaycanla müzakirə predmetinə çevrilir.

Ardı 3-cü səh.



# Mehriban dostlar, sədaqətli qonşular

**Sülh planetdə heç vaxt bugünkü qədər kövrək olmamışdı. Supergüclərin getdikcə sərtləşən qarşılıqlı ittihamları və bəyanatları, heç kimin və heç nəyin mənafeyi nəzərə alınmadan tətbiq edilən ağır sanksiyalar bəşəriyyətin sülhdən savaşa daha yaxın olduğunu düşünməyə vadar edir.**

Məhz belə bir zamanda Soçi şəhərindəki "Boçarov Ruçey" dövlət iqamətgahında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rusiya Federasiyasının Prezidenti Vladimir Putinlə görüşməsi, iki dövlət arasında bir sıra sənədlərin imzalanması, iqtisadi əlaqələrin daha dərindən qurulması sülhlə savaş arasında çırpınan planet üçün xüsusi əhəmiyyət kəsb edir.

Vladimir Putin İlham Əliyevi Soçidə qarşılayarkən dəvətini qəbul edib Rusiyaya gəldiyinə görə minnətdarlığını bildirmiş, ürəkdən salamlamışdır: "Qeyd etmək istərdim ki, bizim görüşlərimiz müntəzəm xarakter daşıyır və bu da təbiidir, qarşılıqlı fəaliyyətimizin əhatə dairəsi çox genişdir. Biz bunu strateji tərəfdaşlıq adlandırırıq". Azərbaycan Prezidenti dəvətə görə minnətdarlığını bildirmiş, müntəzəm görüşlərin ikitərəfli münasibətlərə dinamizm gətirdiyini vurğulamışdır: "...Bizim görüşlərimiz müntəzəm xarakter daşıyır. Biz son üç ayda üç dəfə görüşmüşük. Bu, üçüncü görüşümüzdür. İyunda Moskvada futbol üzrə dünya çempionatı ərəfəsində, avqustda Qazaxıstanda və bu gün Soçidə görüşürük".

Geniş tərkibdə görüşdən sonra iki dövlət başçısı sənədlərin imzalanması mərasimindəki ilk sənədi - Azərbaycan və Rusiya arasında iqtisadi əməkdaşlığın prioritet istiqamətləri haqqında birgə bəyanatı imzalamışlar. "Rosneft"lə SOCAR arasında saziş və kontrakt, müvafiq dövlət qurumları və təşkilatlar arasında bir sıra digər mühüm sənədlər imzalandı. Azərbaycan Respublikası Hökuməti ilə Rusiya Federasiyası Hökuməti arasında turizm və idman sahəsində əməkdaşlıq haqqında saziş, rəqəmsal nəqliyyat sistemləri sahəsində əməkdaşlıq haqqında memorandum və 2024-cü ilədək əməkdaşlıq proqramı və bir sıra başqa sənədlər imzalandı.

Ardı 2-ci səh.

## Azərbaycan Respublikası vətəndaşlarının 2018-ci il oktyabrın 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 26-cı bəndini rəhbər tutaraq, "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 12.3-cü və 40.1-ci maddələrinə əsasən və Azərbaycan Respublikasının Silahlı Qüvvələrini şəxsi heyətlə komplektləşdirmək məqsədi ilə **qərara alıram:**

1. 2000-ci ildə doğulmuş və çağırış gününədək (həmin gün də daxil olmaqla) 18 yaşı tamam olmuş, habelə 1983-1999-cu illərdə doğulmuş, yaşı 35-dək olan, Azərbaycan Respublikasının Silahlı Qüvvələrində müddətli həqiqi hərbi xidmət keçməmiş, müddətli həqiqi hərbi xidmətə çağırışdan möhlət hüququ olmayan və ya müddətli həqiqi hərbi xidmətə çağırışdan azad edilməmiş Azərbaycan Respublikası vətəndaşları 2018-ci il oktyabrın 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılsınlar.

2. "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 38.1.1-ci maddəsində nəzərdə tutulmuş xidmət müddətini keçmiş müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları 2018-ci il oktyabrın 1-dən 30-dək ehtiyata buraxılsınlar.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamın icrası üçün qanunvericilikdə nəzərdə tutulmuş tədbirləri görsün.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 4 sentyabr 2018-ci il*

## Dövlət Komissiyası "Azərenerji" ASC-nin fəaliyyətində ciddi nöqsanlar aşkara çıxarıb

### *"Azərenerji"nin prezidenti Etibar Pirverdiyev tutduğu vəzifədən azad edilib*

2018-ci il iyulun 3-də Mingəçevir şəhərində yerləşən "Azərbaycan İstilik Elektrik Stansiyası" Məhdud Məsuliyyətli Cəmiyyətinin yarımstansiyalarından birində cərəyan transformatorunda qəza baş vermişdi. Qəza nəticəsində Azərbaycanın enerji sistemində ciddi problemlər yaşanmış, Bakı və Gəncə şəhərləri də daxil olmaqla, respublikanın 39 şəhər və rayonunun elektrik enerjisi ilə təminatında fasilə yaranmışdı.

AZƏRTAC-ın Azərbaycan Respublikası Prezidenti Administrasiyasından aldığı məlumatda deyilir ki, baş vermiş qəzanın səbəblərini araşdırmaq və nəticələrini aradan qaldırmaq məqsədilə elə həmin gün Azərbaycan Respublikasının Prezidenti tərəfindən Azərbaycan Respublikası Baş nazirinin birinci müavininin rəhbərliyi ilə Dövlət Komissiyası yaradılmışdır. Azərbaycan Prezidenti tərəfindən Dövlət Komissiyasına təqsirkar şəxslərin müəyyən edilərək məsuliyyətə cəlb olunması məqsədilə hadisənin başvermə səbəblərini araşdıraraq obyektiv rəy hazırlanması və gələcəkdə belə halların təkrarlanmaması üçün təkliflərin verilməsi ilə bağlı təxirəsalınmaz tədbirlər görülməsinə dair çox ciddi tapşırıqlar verilmişdir.

Ötən müddət ərzində Dövlət Komissiyası tərəfindən yerli və xarici ekspertlər, aidiyyəti dövlət orqanlarının və qurumlarının nümayəndələri də cəlb edilməklə, qəzanın başvermə səbəbləri ciddi araşdırılmış, mövcud çatışmazlıqlar və problemlər, habelə qəzanı doğuran hallar da əks olunmaqla, hərtərəfli və geniş rəy hazırlanaraq Azərbaycan Respublikasının Prezidentinə təqdim edilmişdir.

Hazırlanmış rəydə baş vermiş qəzanın əsas səbəblərindən biri kimi "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin qəzaya lazımi səviyyədə hazır olmaması, fəaliyyətində mövcud olan texniki və bir sıra digər çatışmazlıqlar üzündən qəzaya adekvat reaksiya verə bilməməsi, habelə nəticədə ölkənin enerji sistemində qəzaya gətirib çıxaran bir sıra digər nöqsanlara yol verdiyi qeyd olunmuşdur.

Azərbaycan Respublikasının Prezidenti Dövlət Komissiyasının yekun rəyi ilə tanış olmuş və işdə yol verdiyi nöqsanlara görə "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin prezidenti Etibar Pirverdiyevi tutduğu vəzifədən azad etmişdir.

## Şəmkir rayonunun Şəmkir-Abbaslı-Nərimanlı avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Yetmiş bir min nəfər əhalinin yaşadığı 8 yaşayış məntəqəsini birləşdirən Şəmkir-Abbaslı-Nərimanlı avtomobil yolunun tikintisi məqsədi ilə Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsinin dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə avtomobil yollarının tikintisi və yenidən qurulması üçün nəzərdə tutulmuş vəsaitin 4,8 milyon (dörd milyon səkkiz yüz min) manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 4 sentyabr 2018-ci il*

## B.H.Rzayevin "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin prezidenti təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Balababa Hüseynağa oğlu Rzayev "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin prezidenti təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 4 sentyabr 2018-ci il*

## B.H.Rzayevin "Azərişıq" Açıq Səhmdar Cəmiyyətinin sədri vəzifəsindən azad edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Balababa Hüseynağa oğlu Rzayev "Azərişıq" Açıq Səhmdar Cəmiyyətinin sədri vəzifəsindən azad edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 4 sentyabr 2018-ci il*

## E.S.Pirverdiyevin "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin prezidenti vəzifəsindən azad edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Etibar Sinabəddin oğlu Pirverdiyev "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin prezidenti vəzifəsindən azad edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 4 sentyabr 2018-ci il*

## Azərbaycan ilə Rusiya arasındakı münasibətlər strateji xarakter daşıyır

Sentyabrın 1-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin Soçidə keçirilən görüşündə bir çox məsələlər, həmçinin Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi müzakirə olunub, ondan çox vacib sənəd imzalanıb. Prezident İlham Əliyevin və Prezident Vladimir Putinin son üç ayda üç görüşü baş tutub. Bu görüşlər yaxın dostların və müttəfiqlərin mütəmadi görüşləridir.

Bu sözləri sentyabrın 4-də "Sputnik Azərbaycan" multimedia mətbuat mərkəzində keçirilən mətbuat konfransında Rusiyanın Siyasi Tədqiqatlar İnstitutunun direktoru, politoloq və ictimai xadim Sergey Markov deyib.

Politoloq bildirib ki, Rusiya ilə Azərbaycan arasında münasibətlər həm prezidentlər səviyyəsində, həm də iqtisadi, siyasi və humanitar sahələrdə inkişaf edir. Diaspor üzvləri hər iki dövlətdə rahat fəaliyyət göstərirlər. Qeyd olunub ki, Cənubi Qafqaz ölkələri arasında rus dili ən çox Azərbaycanda yayılıb və bu, Rusiya tərəfindən yüksək qiymətləndirilir. Bütün bu amillər onu göstərir ki, ölkələrimiz arasında strateji əməkdaşlıq mövcuddur.

Sergey Markov vurğulayıb ki, Dağlıq Qarabağ münaqişəsinin həlli Azərbaycan üçün ən vacib məsələdir. Lakin Ermənistanda baş verən hakimiyyət böhranı danışıqlar prosesini ləngidir. Prezident Vladimir Putinin Soçidə mətbuata bəyanatında dediyi kimi, Minsk qrupunun həmsədri kimi Rusiya bu münaqişənin sülh yolu ilə nizamlanmasına bütün mümkün köməyi göstərməkdə davam edəcək.

Rusiya Siyasi Tədqiqatlar İnstitutu direktorunun müavini Darya Qrebtsova bildirib ki, Rusiya və Azərbaycan prezidentlərinin Soçi görüşü Ermənistan mətbuatının yazdığına görə bu ölkədə ciddi gərginlik doğurub. Buna səbəb isə Rusiyanın Türkiyə ilə münasibətlərinin sürətlə inkişaf etməsidir. Çünki Azərbaycan Türkiyənin dostu, qonşusu və strateji tərəfdaşı olaraq Rusiya ilə Türkiyənin bir-birinə yaxınlaşmasında maraqlıdır. Üç dövlətin bir-birini dəstəkləməsi Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın xeyrinə həlli işinə müsbət təsir göstərəcək.

Darya Qrebtsova qeyd edib ki, humanitar sahədə əməkdaşlığın dərinləşdirilməsi də Azərbaycan və Rusiya prezidentlərinin Soçi görüşündə diqqət mərkəzində olub. Gələn ay Azərbaycanda növbəti Bakı Beynəlxalq Humanitar Forumu keçiriləcək. Foruma bütün dünyadan alimlər, siyasi xadimlər qatılır. Forum iştirakçıları Azərbaycana gəlib buranın inkişafını öz gözləri ilə görürlər və bu ölkənin dostu olurlar. Tədbir iştirakçıları vətənlərinə qayıdandan sonra Azərbaycanda işlərin əslində necə olduğunu danışırlar. Çünki bir çoxları Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin və onun ətrafındakı rayonların işğal olunmasından xəbərsizdirlər. Bu forum Azərbaycan torpaqlarının işğal olunması haqqında məlumatın beynəlxalq ictimaiyyətə çatdırılmasında vacib rol oynayır. Azərbaycan Prezidenti İlham Əliyev bu işi forumda müvəffəqiyyətlə görür.

Direktor müavini, həmçinin diqqətə çatdırıb ki, Rusiya və Azərbaycan arasında münasibətlər bir çox sahələrdə uğurla inkişaf edir, ölkələrimiz bir-birinə daha da yaxınlaşır.

Sonda jurnalistlərin sualları cavablandırılıb.

***AZƏRTAC***

## Azərbaycan və Rusiya liderlərinin səmimi münasibətləri ölkələrimiz arasında əməkdaşlığın inkişafına kömək edir

Azərbaycan Prezidenti İlham Əliyevin Rusiyaya rəsmi səfəri və Prezident Vladimir Putinlə görüşü iqtisadi əməkdaşlığın prioritet istiqamətləri barədə birgə bəyanatın, habelə bir sıra mühüm sənədlərin, o cümlədən nəqliyyat, neft-qaz, idman, turizm, rəqəmsal sistemlər sahələrində sazişlərin imzalanması ilə başa çatdı. Prezidentlərimiz arasında gözəl şəxsi münasibətlər sonda bu müqavilələrə transformasiya edir.

RF Dövlət Dumasının Müstəqil Dövlətlər Birliyi məsələləri, Avrasiya İnteqrasiyası və Həmvətənlərlə Əlaqələr Komitəsinin sədri Leonid Kalaşnikov bu fikirləri AZƏRTAC-a müsahibəsində söyləyib.

Rusiyalı deputat qeyd edib ki, iki ölkənin liderləri arasında səmimi dostluq münasibətləri əməkdaşlığın bütün istiqamətlərində əlaqələrin inkişafına kömək edir. Leonid Kalaşnikov vurğulayıb: "Deməliyəm ki, "quru" rəqəmlər və faktlar arxasında uzun illər boyu bizim münasibətlərimizdə təzahür edən səmimiyyət var. Mən Prezident İlham Əliyevi yaxşı tanıyıram və bilirəm ki, o, Rusiyaya çox səmimi münasibət bəsləyir. Bu həm də onda təzahür edir ki, Azərbaycanda rus dili təbliğ edilir, rus məktəbləri fəaliyyət göstərir. Mən özüm dəfələrlə həmin məktəblərdə olmuşam. Azərbaycanın necə inkişaf etdiyi, Bakının necə gözəlləşməsi göz qabağındadır. Mən heç yerdə belə gözəl dənizkənarı bulvar görməmişəm".

Deputatın fikrincə, Rusiya və Azərbaycan bütün problemləri birgə həll edə bilərlər. O vurğulayıb: "Əlbəttə, Azərbaycanda da, bizim ölkədə də elə daxili və xarici problemlər var ki, onları birgə həll etmək, neft-qaz sahəsinin, turizm sahəsinin inkişafı üçün səyləri birləşdirmək lazımdır".

Rusiyalı deputat Azərbaycanın turizm potensialının Rusiyada təbliğini gücləndirməyin vacibliyini qeyd edərək deyib: "Azərbaycandakı bəzi turizm obyektləri xarici ölkələrdəki kurortlarla müqayisədə qat-qat yaxşı və maraqlıdır. Mən heç gözləməzdim ki, Rusiyadakı kimi təbii şəraiti olmayan Azərbaycan qış turizmi sahəsində bu qədər irəliləyib. Mən tez-tez deyirəm ki, Azərbaycanın kurort potensialını rusiyalılar arasında daha çox təbliğ etmək lazımdır".

L.Kalaşnikov parlamentlərarası münasibətlər mövzusuna toxunaraq qeyd edib ki, ölkələrimizin parlamentləri arasında praktiki dialoq nizamlanıb. Deputat deyib: "Bu yaxınlarda Rusiya parlament nümayəndə heyətinin Azərbaycana səfəri zamanı biz bir təklif irəli sürdük və həmin təklif Azərbaycan tərəfindən dəstəkləndi. Hazırda Azərbaycanda Rusiyanın ondan çox şəhəri ilə qardaşlaşmış şəhərlər var. Bu, regionlararası əməkdaşlığın genişlənməsi üçün yaxşı təməl yaradır. Biz Rusiya Dövlət Duması ilə Azərbaycan Milli Məclisi arasında yüksək səviyyəli parlamentlərarası komissiya yaradılması formatını da təklif etdik".

L.Kalaşnikov ölkəmizin müasir inkişaf səviyyəsinə çatmasında Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin rolunu xüsusi vurğulayıb. Deputat deyib: "Dünən mən "Zvezda" telekanalının "Yeri gəlmişkən" ("Mejdu tem") verilişində çıxış edərkən Heydər Əliyevi nümunə göstərdim və Prezidentin öz vədlərini necə yerinə yetirməli olması barədə danışdım. Heydər Əliyev xalqın təkidi ilə ölkə rəhbərliyinə qayıdanda Bakının küçələrində silahlı dəstələr qaynaşırdı, bütün oriyentasiya pozulmuşdu. Onda Heydər Əliyev dedi: "Mən qayda yaradacağam, hamı ilə razılığa gələcəyəm". O, Prezident olandan sonra həmin silahlı adamların yanına getdi, rus diasporunun və digər icmaların nümayəndələri ilə görüşdü. Deməliyəm ki, bu, bizim bu gün hakimiyyətdə olanların çoxu üçün örnəkdir - rəhbərin öz xalqına və öz dövlətinə necə münasibət bəsləməli, bütün xırda məqamları kənara ataraq xalq haqqında düşünməli olması barədə örnək. Mənim iş kabinetimdəki şkafda bir fotoşəkil var: mən, Gennadi Züqanov və İlham Əliyev birlikdə çəkdirmişik. İlham Əliyevin dövlətə necə rəhbərlik etdiyini mən çox yüksək qiymətləndirirəm, ona uğurlar arzulamaq və onu əmin etmək istəyirəm ki, mən bir parlamentari kimi Azərbaycana kömək etməyə həmişə hazıram".

# Mehriban dostlar, sədaqətli qonşular

*Əvvəli 1-ci səh.*

Sənədlərin imzalanması mərasimi başa çatdıqdan sonra Rusiya Prezidenti Vladimir Putin mətbuata bəyanatında Xəzər sammitinin yekununda mühüm əhəmiyyət kəsb edən konvensiya imzalandıqdan sonra Rusiyaya səfərə gələn Azərbaycan Respublikasının Prezidentini böyük məmnuniyyətlə qəbul etdiklərini vurğuladı.

Soçi görüşü konstruktiv və işgüzar şəraitdə keçdi. Rusiya və Azərbaycanı bir-birinə bağlayan möhkəm dostluq və əməkdaşlıq ənənələri qarşılıqlı faydalı tərəfdaşlığa, mehriban qonşuluğa və bir-birinin marağına hörmət prinsiplərinə söykənir. Prezidentlərin imzaladığı birgə bəyanat, hökumətlərarası və idarələrarası sanballı sazişlər paketi Soçi görüşünün mühüm əhəmiyyət kəsb etdiyini sübut edir. Əməkdaşlığın əsas istiqamətlərinin inkişafı üzrə fəaliyyət planı ticarətin və qarşılıqlı sərmayələrin artırılması, nəqliyyat marşrutlarının yaradılması, eləcə də humanitar qarşılıqlı fəaliyyətin, o cümlədən mədəni və turizm mübadilələrinin genişləndirilməsi iki dövlət başçısının görüşünün qayəsini təşkil etdi.

Rusiya Prezidenti bəyanatında statistik rəqəmlərin ikitərəfli iqtisadi əlaqələrin miqyasının milyardlarla dolları aşdığını dedi. Ötən ilin yekununa görə, Rusiya və Azərbaycan arasında əmtəə dövriyyəsi 35 faiz artaraq 2,5 milyard dollara çatmış, Rusiyanın Azərbaycana birbaşa kapital qoyuluşu 1,5 milyard dollar olmuşdur. Azərbaycan bazarında fəaliyyət göstərən 700 birgə müəssisənin üçdə biri 100 faizlik Rusiya kapitalı ilə fəaliyyət göstərir. Bütün müsbət tendensiyaları qeyd edən Vladimir Putin demişdir: "Rusiya-Azərbaycan İşgüzar Şurası təkcə ötən il ümumi dəyəri 450 milyon dollar olan 42 birgə layihəyə dəstək göstərib. Azərbaycanda Rusiyanın bir çox enerji şirkətləri uğurla işləyir. Bunlar "Qazprom", "Transneft" və "LUKoyl"dur. Ümumiyyətlə, Rusiyanın və Azərbaycanın enerji sistemləri inteqrasiya rejimində fəaliyyət göstərir".

Rusiya Prezidenti Azərbaycan Prezidenti ilə müzakirə etdikləri bir neçə uğurlu birgə layihəni xatırladaraq vurğuladı ki, "KamAZ" Gəncə Avtomobil Zavodunda lisenziyalı yük maşınlarının buraxılmasını və onlara xidmət göstərilməsini qaydaya salıb, Rusiyanın "R-Farm" şirkəti 2019-cu ildə Azərbaycanda açılacaq dərman preparatlarının istehsalı müəssisəsinin tikintisinə 74 milyon dollarlıq, "Qazprombank" isə Sumqayıt Kimya-Sənaye Parkının inkişafına təqribən 750 milyon dollarlıq sərmayələr yönəltmişdir. Şimal qonşumuz Qərbi Avropa bazarlarını Asiya istehsalçıları ilə birləşdirəcək beynəlxalq "Şimal-Cənub nəqliyyat dəhlizi"nin yaradılmasını ən perspektivli layihələrdən biri hesab edir.

Prezident Putin onu da ayrıca qeyd etdi ki, Rusiyada 11 mindən çox azərbaycanlı tələbənin 1000-ə yaxını Rusiya Federasiyasının Federal büdcəsi hesabına təhsil alır və hər il Azərbaycan vətəndaşlarına 200-dən çox təqaüd verilir. Danışıqlara görə təşəkkürünü bildirən Vladimir Putin belə dedi: "Əminəm ki, əldə olunmuş razılaşmalar Rusiya-Azərbaycan dostluğunun daha da möhkəmlənməsinə xidmət edəcək, ölkələrimizin və xalqlarımızın rifahı naminə qarşılıqlı faydalı əməkdaşlığın inkişafına kömək göstərəcək".

Azərbaycan Prezidenti İlham Əliyev iki dövlət arasındakı müntəzəm əlaqələrin çox möhkəm bazaya əsaslanmasının münasibətlərə dinamizm verdiyini diqqətə çatdırdı: "Rusiya ilə Azərbaycan arasında münasibətlər strateji tərəfdaşların münasibətləridir. Bu münasibətlər həyatımızın bütün sahələrini əhatə edir və bu gün mənim səfərim zamanı biz ikitərəfli münasibətlərimizin bir çox aspektlərini, beynəlxalq problemləri ətraflı şəkildə müzakirə etdik".

Prezident İlham Əliyev bəyanatında xüsusi olaraq regional təhlükəsizlik məsələlərinə toxundu, uzun müddət davam edən və Azərbaycan xalqına misilsiz iztirablar və sonsuz faciələr gətirən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasının mühüm məsələ olduğunu bir daha vurğuladı. Uzun illər Azərbaycanın beynəlxalq miqyasda tanınmış ərazilərinin erməni işğalı altında olmasına, bir milyondan çox azərbaycanlının qaçqın və məcburi köçkün vəziyyətinə düşməsinə heç kim biganə qalmalı deyil: "Münaqişənin tezliklə həlli bizim vətəndaşlarımızın öz tarixi torpaqlarına qayıtmalarına imkan verər, həmçinin bizim regiona sülh, sabitlik və əməkdaşlıq gətirər. Rusiya münaqişənin nizamlanması ilə məşğul olan ATƏT-in Minsk qrupunun həmsədri kimi tənzimləmə işində mühüm rol oynayır. Rusiya bizim qonşumuz, tarixi tərəfdaşımız və dostumuzdur. Biz ümid edirik ki, münaqişənin nizamlanmasında Rusiyanın səyləri davam edəcək".

Azərbaycan Prezidenti hərbi-texniki sahədə Rusiya ilə gələcək əməkdaşlığa xüsusi önəm verdiyini bildirdi. İllər boyu davam edən bu əməkdaşlıq böyük ənənələrə malikdir. İki dövlət arasında reallaşdırılmış kontraktların həcmi, daha doğrusu, Azərbaycan tərəfindən Rusiyadan alınmış hərbi təyinatlı məhsulların dəyəri 5 milyard dolları keçir və bu göstərici hələ son hədd deyildir. Belə ki, Azərbaycanda ordu quruculuğu inkişaf edir, Silahlı Qüvvələrin modernləşdirilməsi davam etdirilir.

Soçi görüşündə iqtisadi məsələlər üzərində ətraflı dayanıldı, əmtəə dövriyyəsinin artması, gələcək üçün böyük perspektivlərin mövcudluğu vurğulandı. Azərbaycanla Rusiyanın müzakirə etdiyi və qarşılıqlı razılaşdırdığı məsələlər yol xəritələri kimi müxtəlif sənədlərdə əksini tapdı. Azərbaycanın dövlət başçısı Rusiya ilə əməkdaşlığa necə yüksək qiymət verdiyini belə dedi: "Rusiya idxala görə Azərbaycan üçün bir nömrəli tərəfdaşdır və qeyri-neft sahəsinin azərbaycanlı ixracatçıları üçün birinci yerdədir. Yəni bu, özlüyündə ölkələrimiz arasında əməkdaşlığın miqyasına və əhəmiyyətinə dəlalət edir. Vladimir Vladimiroviç dediyi kimi, çoxlu investisiya layihələri həyata keçirilir və onların yaxşı perspektivi vardır. Bütövlükdə, ticari-iqtisadi sahədə əmtəə dövriyyəsinin artmasını, inteqrasiya əlaqələrinin möhkəmlənməsini və şirkətlərimiz arasında əməkdaşlıq üçün daha yaxşı şərait yaradılmasını gözləyirik. Əlbəttə, bu işdə nəqliyyat layihələri çox mühüm rol oynayır".

Rusiya və Azərbaycan əsrlərdir ki, qonşu dövlətlərdir. Bu iki dövləti həm dəmir yolları, həm avtomobil yolları, həm də hava yolları birləşdirir. Lakin bu iqtisadi tellərdən başqa, iki ölkə arasında tarixən qırılmaz mənəvi və mədəni körpülər mövcuddur. Vladimir Putin Rusiyada 11 min azərbaycanlının təhsil aldığını bildirdi. Bundan xeyli əvvəl isə ulu öndər hələ sovet dönəmində keçmiş SSRİ-nin ən nüfuzlu universitet və institutlarında 5 mindən artıq azərbaycanlı tələbənin milli kadrlar kimi təhsil almasına imkan yaratmışdı. Bu gün həm Rusiyada, həm də Azərbaycanda iki dövlətin arasında canlı körpülər yaradan minlərlə belə ziyalı var.

Rus dilində yazıb-yaradan, oxuyan, elmin müxtəlif sahələrində çalışan minlərlə azərbaycanlı var. Müslüm Maqomayev ölümündən sonra belə Rusiyanın əbədi sevgisi kimi möhtəşəm gücə malikdir. Azərbaycana gələn istənilən rus onun məzarını ziyarət etməsə, ürəyində bir nisgil qalır.

Ona görə də humanitar sahədə əməkdaşlıq Soçi diskussiyalarında xüsusi yer tutdu. Azərbaycanda rus mədəniyyətinə, rus dilinə, ədəbiyyatına və musiqisinə sonsuz sevgi var. Əgər bu musiqinin başında Müslüm durursa, əgər rus poeziyasının banisi Puşkin yazırsa ki, mənim müqəddəs Quranımı Allahın ən aciz canlısına da təbliğ et, onda onu necə sevməyəsən?!

Azərbaycanda təhsilin rus dilində olduğu 340-dan çox məktəb fəaliyyət göstərir, əksər ali təhsil ocaqlarında rus bölmələri mövcuddur, bundan başqa, Rusiyanın aparıcı universitetlərinin iki filialı ölkəmizdə fəaliyyət göstərir, rus dilində qəzetlər nəşr edilir, internet saytları fəaliyyət göstərir. İşğalçı Ermənistan isə Rusiyanı strateji müttəfiqi, tərəfdaşı elan etsə də, onların rus dilinə tətbiq etdikləri qadağaları düşmən düşmənə etməzdi. Biz dostluğa, qonşuluğa Ermənistandan dəfələrlə sadiqik. Məhz bu rakursdan yanaşanda, Azərbaycanla Rusiya arasında tam dəyərli tərəfdaşlıq, dostluq, mehriban qonşuluq münasibətləri daha da dərinləşdirilməli, inkişaf etdirilməlidir. Azərbaycan Prezidentinin dediyi kimi, "Mehriban dostlar və qonşular arasında münasibətlər belə də olmalıdır".

***Bahadur İMANQULİYEV,***
***"Azərbaycan"***

## *Rusiyalı ekspert:* "İqtisadiyyat Azərbaycan-Rusiya münasibətlərində mühüm aspekt olacaq"



Xəzər dənizinin statusu haqqında konvensiyanın imzalanması zamanı prezidentlərimiz arasında Aktaudakı görüşdən cəmi üç həftə sonra həyata keçirilən bu səfər kifayət qədər maraqlıdır. Soçi səfərinin gündəliyi də beştərəfli formatda keçirilən görüşlərdən daha genişdir.

Bu fikirləri Azərbaycan Prezidenti İlham Əliyevin sentyabrın 1-də Soçiyə səfərinin və Rusiya Prezidenti Vladimir Putinlə aparılan danışıqların yekunlarını şərh edən tanınmış rusiyalı ekspert, Mərkəzi Asiya və Qafqaz Araşdırmaları Mərkəzinin analitik qrupunun rəhbəri Stanislav Pritçin AZƏRTAC-a müsahibəsində səsləndirib.

S.Pritçin deyib: "Əlbəttə, danışıqlar ilk növbədə iqtisadi sahəni əhatə edirdi. Əlamətdar haldır ki, iqtisadi əməkdaşlığa dair sənədlər üçün konkret vaxt - 2024-cü il müəyyən edilib. Bu da o deməkdir ki, tərəflər birgə layihələr, maneələrin aradan qaldırılması və sərmayə proqramlarının həyata keçirilməsi yolu ilə iqtisadi əməkdaşlığın necə canlandırılacağı barədə dəqiq təsəvvürə malikdirlər. "QAZ" markalı avtomobillərin yığılması üzrə istehsalın yaradılması, həmçinin Xəzər dənizinin Azərbaycan sektorundakı yataqlardan birinin birgə işlənməsi irəliyə doğru daha bir addımdır. Yəni, iqtisadiyyat bizim əməkdaşlığın çox müsbət aspektidir və bu kontekstdə gündəlikdə duran məsələlərin dərinliyi və genişliyi postsovet məkanında Azərbaycanı Rusiyanın tərəfdaşları arasında aparıcı mövqelərdən birinə yüksəldir. Həm də nəzərə alaq ki, Azərbaycan Avrasiya İqtisadi İttifaqının üzvü deyil".

Rusiyalı ekspertin sözlərinə görə, qarşılıqlı ticarət, "Şimal-Cənub nəqliyyat dəhlizi" və digər birgə layihələr üzrə nəzərdə tutulan parametrlər ən yaxın zamanda Rusiyanın Azərbaycandakı yeni səfirinin də iştirakı ilə həyata keçiriləcək. "İqtisadiyyat ikitərəfli münasibətlərin çox mühüm aspekti, dövlətlərimiz arasında mehriban qonşuluq və strateji əməkdaşlığın rəhni olacaq", - deyə S.Pritçin fikirlərini yekunlaşdırıb.

# İlham Əliyevin yeni qələbəsi, Paşinyanın növbəti məğlubiyyəti

*Əvvəli 1-ci səh.*

## Ermənistanda növbəti təlaş

Bütün bunlar isə müstəqil dövlətçiliyini qura bilməyən Ermənistanda böyük narahtlıqla qarşılanır. Çünki Ermənistan aydın görür ki, Rusiya, onun dövlət başçısı Azərbaycana, Prezident İlham Əliyevə yüksək səmimiyyətlə yanaşır, Yerevana isə tamam fərqli münasibət sərgilənir. Azərbaycanın dövlət başçısı Rusiyada yüksək hörmət və ehtiramla qarşılanır, Ermənistan rəhbərliyi isə ən yaxşı halda sadəcə hesabat üçün çağırılır.

Bunu Rusiyanın xarici işlər naziri Sergey Lavrovun son açıqlamalarından da görmək olar. Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunda çıxış edən Lavrov bildirib ki, Vladimir Putinlə Ermənistanın baş naziri Nikol Paşinyan arasında görüşün keçiriləcəyi nəzərdə tutulur: "Yaxın zamanlarda Prezident Putinlə baş nazir Paşinyanın daha bir görüşü planlaşdırılır. Düşünürəm ki, Ermənistanın yeni liderinin öz ölkəsində vəziyyətin inkişaf perspektivlərini necə qiymətləndirməsini eşitmək bizim üçün vacibdir. Əlbəttə, biz indiki vəziyyətdə Ermənistanın KTMT qarşısında öhdəliklərinin necə göründüyünə biganə qala bilmərik, belə ki, bu öhdəliklər qüvvəsindədir və onlar tam həcmdə icra edilməlidir, o cümlədən ümumi təşkilatımızın nüfuzunun və imicinin möhkəmləndirilməsi baxımından".

Burada açıq görünür ki, Rusiya Ermənistanda baş verən hadisələrdən hələ də çox narazıdır və Paşinyan hesab vermək üçün yenidən Moskvaya çağırılır.

## "Putin İlham Əliyevlə qucaqlaşıb görüşür, Paşinyandan isə üz çevirir"

Elə "Qrapark" qəzeti də yazır ki, İlham Əliyevin Rusiyaya son səfəri Ermənistan üçün yeni məğlubiyyət sayıla bilər: "Daha dəqiq desək, bu səfər İlham Əliyevin yeni qələbəsi, Paşinyanın növbəti məğlubiyyətidir. Paşinyanın bundan əvvəl Moskvaya etdiyi hər iki səfər protokol xarakteri daşıyırdı. Səfərlərin hamısında Putin İlham Əliyevlə qucaqlaşıb görüşür, Paşinyandan isə üz çevirir. Sentyabrın 8-də keçiriləcək növbəti görüş də əvvəlkilərdən fərqlənməyəcək.

Moskva Bakı ilə geosiyasi, iqtisadi, mədəni və təhlükəsizlik aspektlərində münasibətlərini dinamik şəkildə inkişaf etdirir. Bu hal regionda Azərbaycanın mövqelərini daha güclü hala gətirdiyi halda, Ermənistanla münasibətdə tamam əks vəziyyət müşahidə olunur. Aydındır ki, bu bizim xarici siyasətin iflasıdır. Hər halda, İlham Əliyevin Rusiya səfəri Ermənistan üçün yeni ciddi siqnal oldu".

## İflası sürətlənən ölkə

Erməni ekspert Vahe Davtyan qeyd edir ki, baş verən son hadisələr Ermənistanın fiaskosudur. Onun fikrincə, bu, Ermənistanın regional geosiyasi proseslərdən izolyasiya edilməsini sürətləndirir. Vahe Davtyan diqqəti buna da yönəldir ki, bütün bu proseslər Ermənistanın sosial-iqtisadi cəhətdən daha böyük problemlər yaşaması fonunda baş verir. O vurğulayır ki, Ermənistan iqtisadiyyatı artıq tamamilə iflasa uğramaq üzrədir. Ölkənin dövlət statistika komitəsi də böyük iqtisadi geriləmələr yaşandığını etiraf edir və buna əsas səbəb kimi dünya iqtisadiyyatında yaşanan çətinliklər göstərilir: "Rəsmi açıqlamalara görə, Ermənistanda iqtisadi fəallıq daha sürətlə azalır, ölkə sənayesində ciddi geriləmə qeydə alınır. Həmçinin pərakəndə əmtəə dövriyyəsində də kəskin azalma müşahidə olunur. Ölkədə son illər ərzində enerji tariflərinin kəskin yüksəlməsi və əhalinin həyat səviyyəsinin pisləşməsi vətəndaşların sosial narazılığını da artırır. Regionlar, qlobal layihələrdən kənarda qalmağımız da prosesə birbaşa təsir edir.

Ermənistan hələ də qlobal kommunikasiya layihələrindən kənarda qalmaqdadır. Bu, Azərbaycan tərəfdən yeridilən siyasət və bir də Rusiyanın Ermənistana münasibətdə yürütdüyü siyasəti nəticəsində baş verir. Qlobal meyillər durmadan dəyişir və ölkəmiz coğrafi baxımdan qlobal kommunikasiyaların tərkib hissəsi ola bildiyi halda, bu şansı da itirməkdədir. Amma əvəzində Azərbaycan prosesdən uğurla faydalanır. İlham Əliyevin Rusiyaya son səfəri fonunda bu məqam özünü qabarıq şəkildə göstərdi. Həmin səfər Azərbaycanın Rusiya üçün bölgədə əsas tərəfdaşa çevrildyini aydın surətdə üzə çıxarır. Ermənistan isə burada sadəcə, itirən tərəfdir".

## "Moskva Yerevanla əməkdaşlığa qeyri-ciddi yanaşır"

"Golosarmeni.am" xəbər portalında da İlham Əliyevin Rusiyaya işgüzar səfəri xatırladılıb və qeyd olunub ki, Paşinyanın xarici siyasəti, əslində, iflasa uğramış bir vəziyyətdədir və bu hal Ermənistanın dövlətçiliyinə növbəti zərbədir: "Prezidentlərin geniş tərkibli və təkbətək görüşlərindən sonra bəyanatlar dərc olundu. Bəyanatda əməkdaşlığın daha da genişləndiriləcəyi qeyd edildi. İlham Əliyev Soçidə rusiyalı həmkarı Vladimir Putinlə görüşündə bir sıra mühüm məsələlərlə yanaşı, hərbi-texniki sahədə gələcək əməkdaşlıq barədə müzakirələr aparıb. Qarabağ məsələsini müzakirə edib. İlham Əliyevin Rusiya ilə hərbi əməkdaşlıqla bağlı bəyanatı Ermənistana bir siqnaldır. Bu bəyanat rəsmi Moskvanın Yerevanla əməkdaşlığa qeyri-ciddi yanaşdığını göstərir".

## "Hakimiyyətə qarşı açıq təhdid mesajı"

"Panarmenian.net" portalı isə yazır ki, İlham Əliyevin rusiyalı həmkarı Vladimir Putinlə görüşdən sonra verdiyi birgə bəyanat Ermənistan cəmiyyətində şok effekti yaradıb. Bildirilib ki, İlham Əliyevin hərbi əməkdaşlıqla bağlı dedikləri xüsusi diqqət çəkib: "İlham Əliyev çıxışı zamanı hərbi əməkdaşlıqdan danışıb. O deyib ki, Rusiya ilə Azərbaycan arasında reallaşdırılmış kontraktların həcmi, daha doğrusu, Azərbaycan tərəfindən Rusiyadan alınmış hərbi təyinatlı məhsulların dəyəri 5 milyard dolları keçir və bu göstərici artmağa meyillidir. Son dönəmdə isə Rusiyanın Ermənistan hakimiyyətinə qarşı mesajlarının sayı kəskin artıb. Məsələn, Putinin Ermənistanın keçmiş prezidenti Robert Koçaryanın ad gününü təbrik etməsi ilə bağlı məlumatlar var. Bu, Ermənistan hakimiyyətinə qarşı açıq təhdid mesajıdır".

## Azərbaycanın Ermənistan üzərində yeni üstünlükləri

Azərbaycanın Rusiya üçün nə dərəcədə böyük önəm kəsb etdiyini məşhur rusiyalı politoloq Pavel Klaçkov da təsdiq edir. O vurğulayır ki, Prezident İlham Əliyevin Rusiya Federasiyasına rəsmi səfəri ölkələrimizin münasibətlərini çox yüksək qarşılıqlı etimad və faydalı əməkdaşlıq səviyyəsinə çatdırdı: "Prezident İlham Əliyevin Rusiyaya səfəri göstərdi ki, ölkələrimiz arasında diplomatik əlaqələr çox yüksək səviyyədədir. Bu qarşılıqlı fəaliyyət həm ikitərəfli münasibətlərin, həm də daha ciddi beynəlxalq problemlərin geniş spektrini əhatə edir. İndi, dünya nizamının formatının dəyişdiyini müşahidə etdiyimiz bir vaxtda hər iki ölkə birgə olmalıdır ki, beynəlxalq siyasətdə bu qeyri-sabitlik dövrünü ən az itki ilə başa vursunlar. Bunun üçün müxtəlif istiqamətlər üzrə, o cümlədən təhlükəsizlik, hərbi və iqtisadi sahələrdə ikitərəfli əməkdaşlığı möhkəmləndirmək lazımdır. Səfər uğurlu keçdi və qarşıya qoyulmuş bütün hədəflərə nail olundu".

Ekspert Rusiya ilə Azərbaycan arasında münasibətlərin strateji xarakter daşıdığını vurğulayaraq deyib: "İki ölkə arasında əlaqələr uzunmüddətli və planlı xarakter daşıyır. Ticarət və neft-qaz sahələrində əməkdaşlığın müsbət nəticələri göz qabağındadır. Biz kənd təsərrüfatı sahəsində əməkdaşlığın vacibliyini də başa düşürük. Rusiya bazarına Azərbaycandan çoxlu kənd təsərrüfatı məhsulları daxil olur.

İndi biz səmərəli nəqliyyat modellərini, o cümlədən Şimal-Cənub nəqliyyat dəhlizinin yeni infrastruktur qovşaqlarının yaradılmasını da nizamlamalıyıq. Rusiya üçün Azərbaycanın geosiyasi əhəmiyyəti artır. Biz başa düşürük ki, Hindistana gedib çıxan bu nəqliyyat dəhlizi Rusiya üçün çox vacibdir. Ümumiyyətlə, Azərbaycan ilə Rusiya arasında yaxşı münasibətlər olmasa, bir sıra ölkələrin iqtisadi və təhlükəsizlik problemlərinin həlli mümkün deyil. Cənubi Qafqazda sabitliyin bərqərar edilməsi, burada münaqişəli zonaların olmaması, münasibətlərin kəskinləşməməsi Rusiyanın da maraqlarına uyğundur".

Bütün bunlar bir daha Azərbaycanın Ermənistan üzərində yeni üstünlüklərini aydın nümayiş etdirir.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# Dolların dünyada hökmranlığına son qoyula bilər

## "Antidollar koalisiyası"nın sıraları genişlənir, təşəbbüsləri reallaşır, fəaliyyətləri isə ilkin uğurlu nəticələr verir

*Əvvəli 1-ci səh.*



Əslində, tarixən ABŞ dollarının hökmranlığı da əsasən Səudiyyə Ərəbistanının nefti məhz dollar ilə satmasından sonra başlamışdır.

Hazırda planetin hər 4-cü sakini hökumətin dolların hökmranlığına son qoymağa çalışan ölkələrdə yaşayır. Təhlillər göstərir ki, dollara qarşı qiyam daha sərt ola bilər və əksər iqtisadçıların proqnozlarından fərqli olaraq daha tez başlaya bilər

Hazırda ABŞ 2 milyarda yaxın əhalisi və 15 trilyon dollara yaxın ÜDM-i olan dünyanın ondabirinə qarşı iqtisadi müharibə aparır. Yəni, ABŞ Rusiya, İran, Venesuela, Kuba, Sudan, Zimbabve, Myanma, Konqo Demokratik Respublikası, Şimali Koreya və digər ölkələrə müxtəlif formalarda sanksiyalar tətbiq etməkdədir. Bu dövlətlərlə yanaşı, tam formada sanksiyalara məruz qalmayan, amma ABŞ tərəfindən müxtəlif iqtisadi təzyiqlərlə üzləşən Çin, Pakistan və Türkiyə kimi ölkələrin də siyahısı genişlənməkdədir. Əlavə olaraq, xeyli sayda ölkədən minlərlə fiziki şəxs ABŞ maliyyə nazirliyi tərəfindən hazırlanmış xüsusi siyahıya daxil edilərək, qlobal maliyyə sistemindən istifadə etmək hüququndan məhrum olunublar.

ABŞ-ın nöqteyi-nəzərinə görə, hər bir iqtisadi subyekt əsaslandırılmış şəkildə - ya insan hüquqlarının pozulmasına, ya terrorizmə, cinayətkarlığa, nüvə silahı ilə ticarətə, korrupsiyaya, ya da Çinlə bağlı hadisədə olduğu kimi, haqsız ticarət siyasəti və intellektual mülkiyyətin oğurlanmasına görə sanksiyalara məruz qalıblar.

Lakin son bir neçə ayda baş verənlər belə bir təəssürat yaradır ki, ABŞ sanksiyalardan daha çox öz siyasi və iqtisadi maraqlarını təmin etmək üçün istifadə edir. ABŞ-ın bütün dünya ilə mübarizə aparmaq cəhdləri ona müqavimət göstərən ölkələrdəki hökumətlər və onları dəstəkləyən çoxsaylı vətəndaşlardan ibarət kritik bir kütlə yaratmaqdadır. ABŞ-ın "uzun əlləri"nin çata bilmədiyi paralel maliyyə sistemi yaratmaq üçün bütün imkanlarını səfərbər edən bu təbəqənin fəaliyyəti uğurlu olsa, bu, ABŞ-ın dünyada mövqeyini kardinal şəkildə dəyişəcək.

Amerika dollarında və ya Amerika bankı vasitəsilə həyata keçirilən istənilən əməliyyat avtomatik olaraq tərəfləri ABŞ qanunverici sisteminin təsirində olan ticarət münasibətlərinə cəlb edir. ABŞ İrana qarşı olduğu kimi, birtərəfli qaydada sanksiyaların tətbiq olunmasına qərar verəndə, onlar mahiyyət etibarilə dünyadakı hökumətlərə, korporasiyalara və fiziki şəxslərə sanksiyaya məruz qalmış ölkələrlə biznesi kəsmək və ya dünyanın əsas iqtisadiyyatından xaric olmaq arasında seçim etməli olduqlarını təklif edirlər. Bu, çox güclü təsir alətidir.

Az sayda şirkətlər və banklar Amerika bazarından imtina etməyi və ya Amerika maliyyə institutlarına çıxışdan məhrum olmağı özlərinə rəva görə bilirlər. ABŞ-ın hökmranlıq etdiyi bu sistemi dəyişməyi arzulayan bir çox ölkələr haqlı olaraq bu vəziyyəti öz iqtisadi suverenlikləri üçün təhlükə sayırlar.

Buna görə də Rusiya və Çin minlərlə bank arasında beynəlxalq maliyyə əməliyyatlarını həyata keçirən ümumdünya şəbəkəsinin - Beynəlxalq banklararası maliyyə vəsaitlərinin elektron köçürülməsi cəmiyyətinin (SWIFT) öz versiyalarını işləyib hazırlayıblar. Hər iki ölkə öz ticarət tərəfdaşlarını ikitərəfli ticarətdə yerli valyutaların xeyrinə dollardan imtina etməyə çağırırlar.

Artıq Rusiyanın bu çağırışına ABŞ-la münasibətləri kəskinləşən Türkiyə də qoşulmağa qərar verərək, Rusiya ilə dollarsız ticarət aparacağını bəyan edib. Digər tərəfdən, Çin hökuməti ona trilyon dollara başa gələn "Bir qurşaq - bir yol" təşəbbüsündən alət kimi istifadə edərək, bu təşəbbüsə qoşulan digər ölkələri ticarət əməliyyatlarını dollarla deyil, yuan ilə aparmağı təşviq edir. Bu təşəbbüs çərçivəsində pul alan Pakistan və İran Çinin bu təklifinə razılıqlarını artıq veriblər. Bu ilin iyul ayında Yohannesburqda keçirilən BRİKS ölkələrinin (Braziliya, Rusiya, Hindistan, Çin, Cənubi Afrika) sammitində üzv ölkələr tərəfindən dolların hökmranlığına qarşı aktiv mübarizə aparmağa çağırış edildi. Əlavə olaraq, Türkiyə, Yamayka, İndoneziya, Argentina və Misir kimi ölkələr "dollardan təmizlənmiş" iqtisadiyyat qurmaq üçün "BRİKS Plus"a daxil olmağa dəvət edildilər.

Dolların gələcək taleyinin həll olunacağı əsas amil qlobal xammal bazarı, xüsusən də dəyəri 1,7 trln dollar olan neft bazarıdır. 1973-cü ildən başlayaraq ABŞ Prezidenti Riçard Nikson birtərəfli qaydada Amerika dollarını qızıl standartından ayırdı və Səudiyyə Ərəbistanı və OPEK-ə üzv digər ölkələri nefti yalnız dollar ilə satmağa inandıra bildi. Beləliklə də qlobal neft ticarəti Amerika dollarına bağlandı. Bu isə digər xammalların da dollar ilə ticarətinə gətirib çıxardı. Bu müqavilələr ABŞ üçün həddindən artıq faydalı idi. Belə ki, dollar üçün daim yüksələn tələb Amerika hökumətinə artan defisiti sərbəst idarə etməyə imkan yaradırdı.

Artıq situasiya dəyişmək üzrədir. Antidollar koalisiyasının üzvlərinin əksəriyyəti xammal ixracatçısıdırlar. Bu ölkələr hesab edirlər ki, onların məhsulları BTO, yaxud Brent kimi dollara bağlı olan kriteriyalar ilə qiymətləndirilməməlidirlər və ya onlar bu məhsulları özlərinin tələbatında olmayan valyutalara satmamalıdırlar.

Məsələn, Çin nefti Anqoladan, qazı Rusiyadan, kömürü Monqolustandan, soyanı Braziliyadan alan zaman əməliyyatları öz valyutasında aparır və bu formada hər iki tərəf üçün arzu olunmayan "bazar stavkaları" sövdələşmələrindən qaçır. Bu, artıq reallığa çevrilməkdədir.

Rusiya və Çin enerji resurslarının bir hissəsinin yuanla satılmasına razılaşıblar. Çin özünün əsas neft tədarükçülərinə - Səudiyyə Ərəbistanı, Anqola və İrana təsir etməyə başlayıb ki, onlar satılmış neftə görə yuan qəbul etsinlər. Keçən il Şanxay beynəlxalq enerji birjasında "petroyuan" adlanan və qızıl ilə təmin olunmuş fyuçers müqavilələri tətbiq edilməyə başlandı. Bu, Asiyada xammalın ilk qeyri-neft kriteriyası oldu.

Blokçeyn texnologiyaları əsasında yaradılan rəqəmsal valyutaların getdikcə qəbul olunması müqavimət göstərən ölkələrə ticarətdə dollardan imtinanın daha bir üsulunu təqdim edir. Rusiya mərkəzi bankı "kripto rubl" adına kripto valyutanın dövriyyəyə buraxılmasını elan etdi. Rusiya həmçinin, nəhəng neft yataqları olan Venesuelaya özünün "petro" adlı kripto valyutasını buraxmağa yardım edib.

Bu və ya digər baş verənlər bir istiqaməti göstərir: yaxın illərdə ABŞ dolları onun hökmranlığını zəiflədən çoxsaylı hücumlarla üzləşəcək və enerji bazarı Amerikanın iqtisadi üstünlüyünün taleyinin həll olunacağı əsas mübarizə sahəsinə çevriləcəkdir. Xammal ticarətinin dollardan imtinasına səbəb ola biləcək istənilən uğurlu cəhdlər domino effekti ilə təkcə iqtisadi sistemin bu formasına deyil, bütövlükdə ABŞ-ın xarici strategiyasına da təsir edəcəkdir.

ABŞ iqtisadiyyatının hazırkı vəziyyəti və rubl, yuan, lirə, rial ilə müqayisədə dolların unikal gücü hələlik müqavimət göstərən ölkələrin uğur qazanma ehtimalını azaldır. Ancaq nəzərə alsaq ki, ABŞ-ın xarici borcu artıq 21 trln dolları keçib və bu rəqəm hər il 1 trln dollar artır, onda demək olar ki, ABŞ bu əks-təsiri daha sərt və əksər iqtisadçıların proqnozlaşdırdıqlarından daha erkən hiss edəcəkdir.

ABŞ dollarının dünyada hökmranlığına son qoymaq məqsədlərini elan etmiş ölkələr ilə Azərbaycan eyni regionda yerləşir. Rusiya, Türkiyə, İran, Çin kimi ölkələrlə ticarət əməkdaşlığını inkişaf etdirən Azərbaycan iqtisadiyyatı üçün dayanıqlı maliyyə sisteminə malik olmaq xeyli əhəmiyyətlidir. Məhz yuxarıdakı siyasi səbəblərdən 2015-ci ildə dünya enerji bazarında neftin qiymətinin sərt düşməsi Azərbaycan iqtisadiyyatına da təsir etdi.

Qlobal maliyyə sistemində sürətli dəyişikliklərin baş verdiyi bir şəraitdə dərin və hərtərəfli islahatlar aparan Azərbaycan həm də ikitərəfli iqtisadi münasibətlərdə yeni paradiqmalar ilə üzləşməkdədir. Güclü iqtisadiyyatın qurulması isə belə münasibətlərdə uduş əldə etməyin ən doğru yoludur ki, bu da dövlət başçısı cənab İlham Əliyevin apardığı iqtisadi siyasətin əsas hədəfidir. Ölkədə iqtisadi artımın sürətlənməsi bu hədəflərə çatmağın bariz nümunəsidir.

***Tahir MİRKİŞİLİ,***
***Milli Məclisin deputatı,***
***iqtisad elmləri üzrə fəlsəfə doktoru***

# Gəncədə sakinlərin problemləri dinlənilib



Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov Heydər Əliyev prospekti ilə İsrafil Məmmədov küçəsinin kəsişməsində yerləşən doqquzmərtəbəli binanın və ətraf ərazilərin sakinləri ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, Niyazi Bayramov görüşün Prezident İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun olaraq keçirildiyini deyib. Bildirilib ki, görüşün keçirilməsində məqsəd sakinlərin problemlərini öyrənmək və onların həlli yollarını birgə tapmaqdır.

"Açıq mikrafon" şəraitində keçən görüşdə vətəndaşlar problemlərini söyləyib, müxtəlif təkliflərlə çıxış ediblər.

Səslənən müraciətlər arasında işlə təminat, Qarabağ müharibəsi iştirakçıları və Çernobıl əlillərinə sanatoriyalara göndərişlərin verilməsi, adı çəkilən ərazidə bankomatların quraşdırılması, təbii qazın verilişində yaranan vaxtaşırı fasilələr, torpaq sahələrinin verilməsi üçün sakinlərin növbəyə götürülməsi və digər məsələlər öz əksini tapıb.

Ümumilikdə 40-dan çox şikayət və təklif dinlənilib. Bir çox məsələlər yerindəcə öz həllini tapıb, digər problemlərin araşdırılaraq aradan qaldırılması üçün aidiyyəti qurumlara müvafiq tapşırıqlar verilib.

# Bakıda "Avrasiya CİS konfransı - 2018" mövzusunda beynəlxalq elmi konfrans keçirilir





Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) akademik Həsən Əliyev adına Coğrafiya İnstitutunun və Türkiyənin Səlcuq Universitetinin birgə təşkilatçılığı ilə sentyabrın 4-də Bakıda "Avrasiya CİS konfransı - 2018" mövzusunda beynəlxalq elmi konfrans öz işinə başlayıb.

Konfransda Türkiyə, Rusiya, ABŞ, Qazaxıstan, Moldova və digər ölkələrdən olan elm adamları iştirak edirlər. AZƏRTAC xəbər verir ki, AMEA Yer Elmləri Bölməsinin akademik-katibi, akademik Fəxrəddin Qədirov Prezident İlham Əliyevin ölkədə elektron hökumətin qurulması, məkan məlumatlarının strukturu, onların hökumət portallarında yerləşdirilməsi haqqında sərəncam və göstərişlər verdiyini diqqətə çatdırıb. Akademik deyib ki, bu sərəncamların icrasının atributlarından biri CİS texnologiyalarının ölkə ərazisində inkişaf etdirilməsi, onun nəzəri problemlərinin öyrənilməsi, praktikada tətbiq olunmasıdır. Konfransın əhəmiyyətini qeyd edən alim bildirib ki, beynəlxalq tədbirin keçirilməsinin əsas məqsədi müasir dövrdə coğrafi informasiya sistemlərindən (CİS) elmin və təsərrüfatın müxtəlif sahələrində istifadə imkanlarını aşkara çıxarmaqdır. CİS texnologiyalarının tətbiqi ilə bağlı beynəlxalq təcrübənin öyrənilməsinin, bu sahədə elmi-tədqiqat işlərinin intensivləşdirilməsinin və yüksəkixtisaslı kadrların hazırlanmasının zəruriliyi vurğulanıb.

Coğrafiya İnstitutunun direktoru, akademik Ramiz Məmmədov müasir dövrdə CİS texnologiyalarından əksər fəaliyyət sahələrində geniş istifadə edildiyini bildirib. AMEA-da coğrafi informasiya sistemləri (CİS) texnologiyalarının tətbiqinin elmi-nəzəri əsaslarının araşdırıldığı, bu sahədə mövcud problemlərin həlli məsələləri ilə bağlı mühüm işlərin görüldüyü, bir sıra layihələrin həyata keçirildiyi diqqətə çatdırılıb.

Tədbirdə Səlcuq Universitetinin professoru Fərrux Yıldız və başqaları çıxış edərək CİS texnologiyalarının bütün fəaliyyət sahələrində tətbiqinin dinamik inkişafı, mövcud problemlərin həlli üçün mühüm tədbirlərin görülməsi ilə bağlı fikirlərini bölüşüblər.

Daha sonra konfransın işi "Coğrafi informasiya sistemləri", "Məkan verilənlərin strukturu və onların CİS-də tətbiqi", "Məkan analizlərinin CİS-də tətbiqi", "Ətraf mühitin monitorinqi", "CİS-də təbii fəlakətlərin və təbii resursların idarə olunması", "CİS-də torpaq, su və iqlimin tədqiqi", "Kadastr, torpaq planlaşdırılması və idarəetmə", "GPS, məsafədən zondlama və CİS", "CİS vasitəsilə Yerin müşahidəsi və geodezik ölçmələrin üsulları" seksiyaları üzrə davam edib.

Sentyabrın 7-dək davam edəcək beynəlxalq tədbirdə 150-dək məruzə dinlənilib müzakirə olunacaq.

# İlham Əliyevin birlik təşəbbüsü türkdilli ölkələrin həmrəylik hərəkatına çevrilir

## Azərbaycan Prezidentinin təklifi ilə Naxçıvanda təsis olunan TDƏŞ Avrasiyada mükəmməl əməkdaşlıq formatı kimi özünü təsdiq edir

*Əvvəli 1-ci səh.*

TDƏŞ-in VI Zirvə görüşü idmana və gənclər arasında əməkdaşlığın inkişafına həsr olunmuşdu. Azərbaycan artıq dünyada həm də idman dövləti kimi tanınır. İndiyədək respublikamızda yüzlərlə dünya və Avropa əhəmiyyətli beynəlxalq yarışlar keçirilib. Azərbaycan I Avropa Oyunları və İslam Həmrəyliyi Oyunları kimi möhtəşəm idman tədbirlərinə evsahibliyi edib. Eyni zamanda, Azərbaycan idmançıları bütün yarışlardan, o cümlədən olimpiya oyunlarından qızıl medallarla qayıdırlar. Bu mənada Azərbaycan idman dövləti kimi öz təcrübəsini türkdilli ölkələrlə bölüşməyə hazırdır. Çıxışında idmanın insanları, xalqları birləşdirdiyini deyən Prezident İlham Əliyev bildirdi ki, idmanın inkişafı həm ölkələrimizin ümumi inkişafına töhfə verəcək, həm də əməkdaşlığımızı daha da möhkəmləndirəcək.

Azərbaycanda həm də mükəmməl gənclər siyasəti həyata keçirilir. Ən əsası, ölkəmizdə gənclər siyasəti dövlət siyasətinin prioritet istiqamətlərindən biridir. Türkdilli dövlətlər Azərbaycanın bu sahədəki təcrübəsindən də yararlana bilərlər.

Prezident İlham Əliyev nitqində regional təhlükəsizlik məsələlərinə toxundu, Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasətinin nəticələrini diqqətə çatdırdı. Rəcəb Tayyib Ərdoğan Azərbaycanın ərazi bütövlüyünün bərpası istiqamətində Türkiyənin və digər ölkələrin dəstəyinin önəmli olduğunu bildirərək dedi: "Türk dünyası olaraq sülh və sabitliklə bağlı hər bir məsələyə böyük diqqət yetirməliyik. Bu baxımdan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həlli üçün əlimizdən gələni etməyə davam edəcəyik".

Ötən illərin mənzərəsi göstərir ki, TDƏŞ qarşısında duran vəzifələrin həyata keçirilməsi istiqamətində böyük uğurlar əldə edib. Türkdilli dövlətlər arasında siyasi, iqtisadi və mədəni əlaqələrin genişləndirilməsi bu prosesin bütün iştirakçılarının, o cümlədən öz təşəbbüsləri ilə əməkdaşlığı gücləndirən Azərbaycanın maraqlarına cavab verir. TDƏŞ-in son zirvə toplantısı göstərdi ki, təşkilat öz imkanlarından türkdilli xalqların mənafeyi naminə səmərəli istifadə etməkdədir.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

## “AZƏRBAYCAN”– 100

# İSTİQLALIMIZIN YADİGARI, HƏMYAŞIDI VƏ TƏRƏNNÜMÇÜSÜ

*Əvvəli 1-ci səh.*

Üsyançılar təhkimçiliyin ləğvini, mütləqiyyətin devrilməsini, yaxud məhdudlaşdırılmasını, respublika və konstitusiyalı quruluşun bərqərar olunmasını tələb edirdilər.

Üsyan yatırıldı. Çarizm məğlub etdiyi dekabristlərə qarşı amansız oldu, bəziləri edama, bəziləri Sibirə, bəziləri isə Qafqaza sürgünə məhkum edildi. Qafqaza göndərilən gənc inqilabçılar yerli əhali ilə dostlaşdı. Burada ictimai-siyasi düşüncənin formalaşmasında onların əhəmiyyətli təsiri oldu.

Rusiyada təhkimçilik hüququ 1861-ci ildə ləğv edildi. Azərbaycanda isə 1870-ci il 14 may tarixli “Əsasnamə”yə əsasən təhkimçilik hüququ ləğv olundu. Çar Rusiyası bundan sonra əyalətlərdə istibdadı davam etdirmək üçün yeni vasitələrə əl atdı. Azərbaycan ziyalıları ruhdan düşmədülər, uzun illər mübarizələrini müxtəlif formalarda davam etdirdilər.

XX əsr təlatümlərlə gəldi. Əsrin ilk illərindən inqilablar, müharibələr, xalqların milli-azadlıq hərəkatları gücləndi. Əsrin əvvəllərində çarizmin zülmlərinə qarşı çıxan və qurtuluş yolu axtaran qruplar və təşkilatlar yaranmağa başladı. Müstəmləkə ölkələrinə xas olaraq çar Rusiyasının ərazilərində də sinfi mübarizə deyil, milli azadlıq mübarizəsi önə çıxdı. Milli azadlıq hərəkatı haqsızlıqlara, zülmlərə məruz qalan, ədalətsizliklərlə üzləşən millətin ictimai-siyasi, mədəni hərəkatının başlıca qayəsi oldu. 1902-ci ildə 17 yaşlı Məhəmməd Əmin Rəsulzadənin rəhbərliyi ilə Azərbaycanda rus müstəmləkəsinə qarşı mübarizə aparan ilk siyasi təşkilat - “Müsəlman gənclik təşkilatı” yarandı. Bu təşkilatdan sonra qısa müddətdə milli zülmdən qurtuluş digər partiyaların da əsas şüarına çevrildi. Azərbaycanda müxtəlif ideya istiqamətinə malik partiyaların sayı artmağa başladı. 1911-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin ideya-siyasi istiqamətini müəyyənləşdirən “Müsavat” partiyası yarandı. Ölkəsinin, millətinin azadlığını özünə şüar edən bu partiya 1918-ci ilin 28 mayınadək Azərbaycanda muxtariyyat uğrunda ardıcıl siyasət yürütdü.

1917-ci ilin fevral inqilabı Azərbaycan xalqının da azadlıq mübarizəsində mühüm rol oynadı. Üç yüz illik Romanovlar sülaləsi taxt-tacdan məhrum edildikdən sonra hakimiyyətə gələn Müvəqqəti hökumət Müəssislər Məclisinə seçkilər keçirdi. Siyasi çarpışmaların davam etdiyi günlərdə Müvəqqəti hökumət də uzun müddət qərar tuta bilmədi. 1917-ci il oktyabrda yenidən hakimiyyət çevrilişi baş verdi.

Bu inqilablar çarizmin əsarətindən qurtulan millətlərə müstəqilliklərini qazanmaq imkanı yaratdı. Amma bolşevik Rusiyası da gözlərini Azərbaycandan çəkmədi. Leninin rəhbərlik etdiyi bolşevik hökuməti Bakı neftini əldən vermək fikrində deyildi. Azərbaycanın müstəqilliyini bərpa etməsinin qarşısını almaq üçün bu dəfə də bolşevik Rusiyası ermənilərlə razılığa gəldi. Məkrli planlar quruldu. Birinci Dünya müharibəsində döyüşmüş, kifayət qədər peşəkar hərbçilər Azərbaycana yönəldildi. 1918-ci ilin əvvəllərində artıq Bakıda bolşevik-daşnak birləşmələrindən ibarət çox güclü silahlı dəstələr var idi.

Oktyabr inqilabından sonra Rusiyaya gedə bilməyən Cənubi Qafqazdan Ümumrusiya parlamentinə - Müəssislər Məclisinə seçilmiş azərbaycanlı, gürcü və erməni deputatlar 1918-ci il fevralın 14-də Tiflisə yığışdılar. Birlikdə Cənubi Qafqaz (Zaqafqaziya) Seymini yaratdılar.

### Böyük yolun zirvəsi - Azərbaycan Xalq Cümhuriyyəti

Qabaqcıl övladlarının Azərbaycanın azadlığını rəsmləşdirmək uğrunda mübarizə apardıqları mürəkkəb, ziddiyyətli günlərdə düşmən də boş oturmamışdı. Vladimir İliç Lenin tərəfindən Qafqaza fövqəladə komissar kimi göndərilən Stepan Şaumyanın başçılığı ilə güclü qüvvəyə çevrilmiş daşnak-bolşevik birləşmələri 1918-ci ilin yanvarından hücuma hazır idilər. Əlverişli fürsətin yarandığını düşündükləri anda ilk atəşi açdılar. Həmin günün səhəri - martın 31-dən Bakıda azərbaycanlılara qarşı soyqırımına başladılar. Şəhəri taladılar, yerli əhalidən rastlarına çıxanları işgəncələr verərək şəhid etdilər, sağ qalanların çoxu canlarını götürüb qaçdılar. Bakını işğal etdilər. Bakı Xalq Komissarları Soveti hakimiyyəti ələ aldı. Ancaq Şaumyanın rəhbərliyi ilə qətllər, qarətlər bundan sonra da davam etdirildi.

Bakıda milli qırğınlardan sonra azğınlaşmış daşnak-bolşevik birləşmələri Azərbaycanın müxtəlif bölgələrində yerli əhalini qırmağa başladılar...

Aprelin 22-də Zaqafqaziya Seyminin deputatları Zaqafqaziya Demokratik Federativ Respublikasının yarandığını elan etdilər. Bir ay sonra federasiya dağıldı. Mayın 26-da Tiflisdə Zaqafqaziya Seyminin son iclası oldu. Zaqafqaziya Seyminin süqutunun səhəri günü - mayın 27-də qurumun azərbaycanlı deputatları fövqəladə iclas keçirərək Azərbaycanın müvəqqəti Milli Şurasını yaratdılar. Milli Şuranın sədri Məhəmməd Əmin Rəsulzadə, müavini Həsən bəy Ağayev, katibi Mustafa Mahmudov, İcraiyyə Komitəsinin (hökumətin) sədri isə Fətəli xan Xoyski seçildi.

Milli Şura Tiflis şəhərində, Qafqaz Canişin sarayının ikinci mərtəbəsindəki böyük salonda 1918-ci ilin 28 mayında ilk iclasını keçirdi. İclasda Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması elan olundu, Azərbaycanın 6 bənddən ibarət “Milli İstiqlal Bəyannaməsi” imzalandı.

Milli-demokratik qüvvələr çətin bir zamanda Azərbaycanın dövlət müstəqilliyinə nail oldular. Azərbaycan Xalq Cümhuriyyəti millətin çox ağır günlərində dərdlərinə çarə, yaralarına məlhəm kimi gəldi. Tarixin qarışıq zamanında xilaskar kimi yetişdi. Dövr o qədər təlütümlü idi ki, yeni respublika paytaxtı olmalı şəhərdə - Bakıda deyil, Tiflisdə öz varlığını bəyan edə bildi. 1918-ci il iyunun 16-da Azərbaycan Milli Şurasının üzvləri və Azərbaycan Xalq Cümhuriyyəti hökuməti Tiflisdən Gəncəyə köçməli oldu. Cumhuriyyət hökumətinin yaradıcıları böyük coşqu ilə illərdir qurduqları xəyallarını gerçəkləşdirməyə, ən ülvi arzularını həyata keçirməyə başladılar.

1918-ci ilin qanlı-qadalı hadisələri isə davam edirdi. Daşnak-bolşevik birləşmələrinin Azərbaycanın ayrı-ayrı yerlərində törətdikləri vəhşiliklərin acı nəticələri göz önündəydi. İşgəncələr görən, doğmaları gözlərinin qabağında əzabla qətlə yetirilən, evləri başlarına uçurulan, ocaqları söndürülən azərbaycanlılar bir tərəfdən də aclıqla, yoxsulluqla imtahana çəkilmişdilər.

Bakı Kommunası 1918-ci il 31 iyulda səlahiyyəti öz üzərindən götürdükdən sonra Bakıda əks-inqilabçı Sentrokaspi diktaturası yarandı. Bolşevizm pərdəsi altında Azərbaycan xalqına qarşı soyqırımına bundan sonra da son qoyulmadı...

### “Azərbaycan” qəzetinin yaranmasını zəruri edən səbəblər

Yox yerdən dövlət quranlar onu qoruyub yaşadacaqlarına sonsuz ümid bəsləyərək, bütün sahələrdə əzmlə işə başlamışdılar. Həyata keçiriləcək mühüm tədbirlərdən biri də mətbuatın inkişaf etdirilməsi idi. Cümhuriyyət qurucularının əksəriyyəti çox gənc yaşlarından həm də publisist kimi fəaliyyət göstərirdilər. Onlar mətbuatın mütərəqqi fikirləri ifadə etmək, milləti tərəqqiyə çatdıracaq yola səsləmək, düşmənlərinə iradələrini göstərmək üçün ən gərəkli vasitə, mötəbər tribuna olduğunu yaxşı bilirdilər. Odur ki, qarşılarına qoyduqları vacib məsələlərdən biri də hökumətin siyasi kursunu xalqa izah edən mətbuat orqanı yaratmaq idi.

Azərbaycan Xalq Cümhuriyyətinin bəlkə də ən çox bu məsələdə bəxti gətirmişdi. Mətbuat sahəsində, necə deyərlər, əliyalın, təcrübəsiz deyildi. İlk milli qəzetimizdən - “Əkinçi”dən başlayan, “Ziya” və “Ziyayi Qafqaziyyə”dən, “Kəşkül”dən, “Şərqi-Rus”dan, “Molla Nəsrəddin”dən, “Həyat”dan, “İrşad”dan, “Füyuzat”dan, “Tərəqqi”dən, “Kaspi”dən, “İqbal”dan, “Açıq söz”dən, “Dirilik”dən, “Təkamül”dən... və daha neçə-neçə mətbuat orqanından keçib gələn yol onun idi. Daha doğrusu, Azərbaycan Xalq Cümhuriyyəti o yolun yetişdiyi zirvə idi. Həmin qəzet və jurnalların nəşrinə əzab-əziyyətlərlə nail olanların əksəriyyəti sözlə silahlanaraq millətin istiqbalı naminə döyüşmüşdülər. Azərbaycanın müstəqillik ideyasını ən böyük idealları, ən müqəddəs amalları kimi qəlblərində daşımışdılar. Onlar milləti oyatmaq, ona milli kimliyini xatırlatmaq, dünyanın inkişaf etmiş ölkələrinin vətəndaşları ilə eyni cərgədə addımlamaq naminə çalışdılar. Bunun üçün Həsən bəy Zərdabi, Hacı Səid, Cəlal və Kamal Ünsizadə qardaşları, Əlibəy Hüseynzadə, Əhməd bəy Ağaoğlu, Əlimərdan bəy Topçubaşov, Cəlil Məmmədquluzadə, Ömər Faiq Nemanzadə, Məhəmməd Əmin Rəsulzadə, Üzeyir Hacıbəyli, Haşım bəy Vəzirov, Nəriman Nərimanov, Sultan Məcid Qənizadə və başqa təəssübkeş övladları uzun illər qələmin qüdrətindən, sözün gücündən istifadə etdilər. Onlar öz yazılarında hər zaman tarixlə müasirliyi tutuşdurur, yatmış vulkan kimi susqun görünən doğma millətin azadlıq duyğusunu, milli düşüncəsini oyatmağa çalışırdılar. Keçmişini xatırladır, ancaq öyərək, “qəhrəmansan” deyib, onu arxayınlaşdırmırdılar. Milləti öz tarixindən öyrənməyə, qürurverici səhifələrindən dərs almağa, yanlışlıqlarından və başına gətirilən müsibətlərdən nəticə çıxarmağa, sükunətdən, ətalətdən qurtularaq sabahına doğru əmin addımlarla irəliləməyə səsləyirdilər.

Dövlətin istiqlalını müdafiə etmək, qorumaq, yaşatmaq üçün zəruri olan bütün addımlar atılırdı. Gəncədə fəaliyyətə başlayan Cümhuriyyət hökuməti ən gərgin günlərində siyasətini vətəndaşlarına izah edən mətbu orqanı yaratmağı vacib məsələlərdən biri kimi qarşıya qoydu.




1918-ci ilin 25 iyununda yeni qəzetin büdcəsini tərtib etmək, hökumətin təsdiqinə göndərmək, Gəncədəki mətbəəni bu nəşrin çapına hazırlamaq üçün müvafiq tapşırıq verildi. Tiflisdən mətbəə ləvazimatı almaq nəzərdə tutuldu. Yeni formalaşan hökumət 1918-ci il iyulun 3-də “Azərbaycan Cümhuriyyəti hökuməti xəbərləri”nin nəşrinə başlamaq qərarını qəbul etdi. “Hökumət xəbərləri” həftədə iki dəfə buraxılmalı, əsasən milli hökumətin, ayrı-ayrı nazirliklərin qərarları, təlimatları, xəbərləri, elanları və digər məlumatları dərc etməli idi. Avadanlıqlarla təmin olunma ərzaq nazirinə tapşırıldı. “Hökumət xəbərləri”nə rəhbərlik isə 27 iyul tarixli qərarla xalq maarif nazirinə həvalə edildi. Ancaq bu da qaneedici olmadı. Maddi çətinliklərə baxmayaraq, hökumət sentyabrın əvvəllərində Gəncədə “Azərbaycan” adlı qəzetin nəşrinə başlamaq barədə tarixi qərar qəbul etdi.

### Mətbuatımızda “Azərbaycan” adı...

Hər bir mətbuat orqanının ilk uğuru ona uyğun ad seçimindən başlayır. “Azərbaycan” adı ilə qəzet, jurnal nəşr etmək isə uzun illərin arzusuydu. Hələ 1891-ci ildə “Kəşkül” bağlandıqdan iki ay sonra Ünsizadə qardaşları - əvvəlcə Cəlal, sonra Kamal bu adda qəzetin nəşrinə icazə almaq məqsədilə baş mətbuat idarəsinə müraciət etdilər və rədd cavabı aldılar.

1906-cı ildə “Molla Nəsrəddin” jurnalının təsiri ilə Təbrizdə “Azərbaycan” adlı satirik jurnal fəaliyyətə başladı. 1918-ci ildə isə Bakıda İran demokratlarının “Azərbaycan” adlı qəzeti nəşr olundu.

Azərbaycan Xalq Cümhuriyyətinin, eləcə də mətbuat tariximizin ilk rəsmi dövlət qəzeti olan “Azərbaycan”ın birinci nömrəsi 1918-ci il sentyabrın 15-də Gəncə şəhərindəki Yelizavetpol qubernatorunun mətbəəsində işıq üzü gördü. Azərbaycan dilində buraxılmış səhifələrin başında qəzetin adı ilə yanaşı, “Türk və islamçılığa aid məqalələrə “Azərbaycan”ın səhifələri açıqdır” yazıldı.

“Rəsmi dövlət qəzetəsi” qeydi olmasa da, hökumət başçısının təşəbbüsü və dəstəyi ilə yaranan, dövlət tərəfindən maliyyələşən “Azərbaycan” bu vəzifəni uğurla yerinə yetirirdi. Onun məsuliyyəti böyük idi! Bir millətin qürurverici tarixinə sadəcə, yol yoldaşı olmayacaqdı. Bu qəzet Azərbaycan Xalq Cümhuriyyətinin ən mötəbər tribunalarından birinə çevriləcəkdi. Səhifələrindən Cümhuriyyət hökuməti öz vətəndaşlarına müraciətlərini ünvanlayacaq, dostlarına, düşmənlərinə mövqeyini nümayiş etdirəcəkdi. Belə müqəddəs vəzifəni daşımaq üçün yaradılan qəzet üçün ən münasib, ən doğru ad elə “Azərbaycan” olmalı idi!

Qəzetin ilk nömrəsi A-3 formatda, dörd səhifə həcmində, iki dildə çıxdı. İki səhifəsi Azərbaycan, iki səhifəsi isə rus dilində oldu. Rusca nəşri xırda istisnalarla Azərbaycancanın tərcüməsi idi.

“Azərbaycan” qəzeti ölkəsinə qələbə xəbəri ilə gəldi. Nuru Paşanın komandanlığı ilə Qafqaz İslam Ordusu və milli hərbi hissələrimiz Bakını bolşevik-daşnak işğalından azad edərək qalibiyyətlə şəhərə daxil olmuşdular. Qəzetin birinci nömrəsini bu möhtəşəm günə həsr olunmuş xəbərlər, təbrik teleqramları bəzədi. “Bakının süqutu” adlı məqalədə yazılırdı: “Bakının süqutu. Dün gecə Azərbaycan Cümhuriyyəti Riyasəti namına Nuri Paşa həzrətləri tərəfindən böylə teleqraf keşidə edilmişdir: “Bismihil-kərim, Bakı şəhəri 15.9.34 saət 9 əvvəldə qiteatimiz tərəfindən zəbt olundu. Qafqaz İslam Ordusu komandanı Farik Nuri”.

Qürurverici, sevinc dolu xəbərlər ard-arda gəlirdi. Nuri Paşa sentyabrın 15-də Gəncəyə göndərdiyi növbəti teleqramda Azərbaycan hökumətini Bakıya dəvət edirdi: “Gəncədə Azərbaycan Cümhuriyyəti Rəyasəti-Alisinə. Azərbaycan Cümhuriyyətinin paytaxtı olan Bakı şəhərini ziyarət etmək üzrə Heyəti-Vükəlanın yarın Bakıya təşriflərinə müntəzirəm, əfəndim. 15.09.18. Yavərani-həzrəti-şəhriyaridən. Farik-Nuru”.

Azərbaycan Xalq Cümhuriyyəti Heyəti-Vükəla (Nazirlər Şurası) rəisi Fətəli xan Xoyskinin cavab teleqramında isə yazılırdı: “Qafqaz İslam Ordusu komandanı səadətli Nuri Paşa həzrətlərinə. Təhti-komandanızda olan cəsur türk əsgərlərimiz tərəfindən Azərbaycanın paytaxtı olan Bakının düşməndən xilas edildiyi münasibətilə millətin zati-həmiyyətpərvəranələrinizə və dünyanın ən nəcib əsgəri olan türk oğullarına minnətdar olduğunu ərz etməklə iftixar edərim, əfəndim. Heyəti-Vükəla rəisi Fətəli xan”.

“Azərbaycan” qəzeti hökumət üzvlərinin sentyabrın 17-də qatarla Gəncədən Bakıya yola düşdüklərini yazdı. Kişi gimnaziyasının qarşısında onları gənc vətənpərvərlər alqışlarla qarşılamışdılar. Paytaxtın qəhrəman əsgərlər tərəfindən azad olunması münasibətilə keçirilən bu izdihamlı nümayişdə Fətəli xan Xoyski təbrik nitqi söyləmişdi.

Qəzet ilk nömrəsində xəbər verirdi ki, Qafqaz İslam Ordusu Bakını azad edərkən 30 minədək silahlı düşmən əsir alınmış, şəhərdə sakitlik bərqərar olmuşdur. Həmin nömrədə dövrün məşhur şairi Məhəmməd Hadi “Türk nəğməsi” adlı şeirində türk əsgərinin qəhrəmanlığını belə vəsf edirdi:

Türkün tökülən qanları bihudə gedərmi?
Diqqətlə düşün, yoxsa bu qan həpsi hədərmi?
Dörd ildə verilmiş bu qədər can hədər olmaz,
Məfkurə yolunda tökülən qan hədər olmaz
Qiymətli olan xuni-şəhidan hədər olmaz,
Dul qalmış köhəni-nisvan hədər olmaz.
Bax sən sonuna, hümməti-türkan hədər olmaz,
Bədbəxt olan əfqani-yetiman hədər olmaz.
Türkün tökülən qanları bihudə gedərmi?
Diqqətlə düşün, yoxsa bu qan həpsi hədərmi?

### “Azərbaycan” qəzetinin Gəncə dövrü

Gəncə şəhəri, Bulatov küçəsindəki 26 nömrəli ev... “Azərbaycan” qəzeti redaksiyasının ilk ünvanı... Müstəqil Azərbaycanın birinci rəsmi qəzetində yer alan materialların qayğısı, mürəttib çatışmazlığı, kağız və şrift qıtlığı ilə bağlı çətinliklər bu evdə yaşanırdı. Əslində, hökumət idarələri kimi “Azərbaycan” da bu ünvanda qonaq idi. Qəzetin rus dilində sentyabrın 19-da çapdan çıxan ikinci nömrəsində yazılırdı: “Hökumət idarələri hələlik Gəncədə fəaliyyət göstərir. Bu günlərdə hökumət ilk imkan düşən kimi mərkəzi idarələri Bakıya köçürəcəkdir”.

“Azərbaycan”ın üçüncü nömrəsi sentyabrın 22-də, dördüncü nömrəsi isə sentyabrın 25-də çapdan çıxdı. Dörd səhifəlik, üç səhifəsi rus, bir səhifəsi Azərbaycan dilində olan dördüncü buraxılışda “Azərbaycan” qəzetinin Bakıya köçməsi barədə elan verildi. Qəzetdə rus dilində “Gəncə, 25 sentyabr 1918” sərlövhəli yazıda məlum edilirdi ki, Azərbaycan hökuməti 3 aylıq fəaliyyətdən sonra Gəncəni tərk edərək öz paytaxtına köçdü. Məqalədə Gəncənin Azərbaycan dövlətçiliyi tarixində əhəmiyyətli yer tutduğu da xatırlanırdı. “Azərbaycan”ın həmin nömrəsində “İdarədən” verilən xəbərdə bildirilirdi: “Qəzetimiz bu gündən Bakıya köçdüyünə binaən hər bir sifarişat üçün bundan sonra bu ünvana müraciət etməli: Bakı, “Azərbaycan” qəzeti idarəsinə”.

“Azərbaycan”ın on günlük Gəncə dövrü bitdi... 1918-ci il sentyabrın 25-də “Azərbaycan” qəzetinin “Heyəti-idarə”si (Redaksiya heyəti) Nazirlər Şurası və mühüm dövlət idarələri ilə birlikdə Bakıya köçdü.

### “Azərbaycan” qəzetinin Bakı dövrü

Fətəli xan Xoyskinin rəhbərlik etdiyi Heyəti-Vükəla (Nazirlər Şurası) “Metropol” mehmanxanasında (indiki AMEA Nizami Gəncəvi adına Ədəbiyyat Muzeyində) yerləşdi. Həmin binanın qarşısındakı - Kolyubakinski (indiki Nigar Rəfibəyli) küçəsindəki Adamovlara məxsus yaşayış binası isə “Azərbaycan” qəzetinin yeni ünvanı oldu.

Qəzetin ana dilində 5-ci nömrəsi 1918-ci il oktyabrın 3-də “Heyəti-təhririyyə” imzası ilə 4 səhifə olmaqla Bakıda işıq üzü gördü. İlk dəfə həmin nömrədə “Azərbaycan” adının altında “Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir” yazıldı. Nömrənin ilk səhifəsində “Hökumət qərardadı”, maliyyə naziri Ə.Əmircanovun “Elan”, Heyəti-Vükəla rəisi F.X.Xoyskinin və ticarət və sənaye naziri A.Aşurbəyovun “Azərbaycan Cümhuriyyətindən əhalinin nəzərinə” sərlövhəli 1 oktyabr 1918-ci il tarixli müraciəti dərc olundu. Müraciətdə “Azərbaycan Cümhuriyyəti ümum Bakıdakı mədənlərdə və fabriklərdə işləyən fəhlələr bu gündən işlərinə şüru etməgə dəvət” edilirdi. Çünki Bakı artıq dinc həyatına qovuşmuşdu. Bütün sahələrdə - iqtisadi, sosial, mədəni sahələrdə işlər canlanmağa başladı.

Bakının azad edildiyi gün Məhəmməd Əmin Rəsulzadə Avropa dövlətlərinin iştirakı ilə İstanbulda keçirilən konfransda Azərbaycan Xalq Cümhuriyyətinin nümayəndə heyətinə başçılıq edirdi. Buna görə onun Fətəli xan Xoyskiyə göndərdiyi təbrik teleqramı bir az gec - “Azərbaycan” qəzetinin 5-ci sayında yer aldı. Teleqramda deyilirdi: “Paytaxtımızın istirdadından dolayı təhti-idareyi-alilərində bulunan hökumətimizi səmimi təbrik ilə Bakının yeni türk ellərini istixlas (xilası) üçün sarsılmaz bir qəleyimətin olması ümidilə bütün arkadaşlarımla öpüşürüz.

Azərbaycan heyəti-mürəxxəsəsi namına Rəsulzadə Məhəmməd Əmin”.

Həmin nömrədə “C.Dağıstani” imzalı, “Tarixi gün” sərlövhəli məqaləsində Ceyhun bəy Hacıbəyli Bakının erməni-bolşevik işğalından azad olunmasından bəhs edirdi: “8 zilhiccə - 15 eylülün bütün türk və islam aləminin ən səadətli, ən şövkətli günlərində nədd olunacağı şübhəsizdir.

Haman gün türk və islam tarixinə zərin bir səhifə işğal edəcəkdir.

...Bismihil-kərim, düşmənlər öz maraqlarına yetmədilər, məyus oldular. Türkün qəhrəman oğulları öz istedadlarını, öz rəşadətlərini, özlərinin yaşamaq üçün ölməyə hazır olmalarını bütün aləmin gözünə çırpdılar və bununla böylə, yüz illərcə başqalarının təhtitəzyiqində əzilən milyonlarca dindaş və millətdaşlarımıza böyük-böyük ümidlər bəxş etdilər”.

Qəzetdə elan verilmişdi: “Sabiqdə Gəncədə rus dilində nəşr olunan “Azərbaycan” qəzetəsi şənbə günündən etibarən Bakıda nəşr olunmağa başlayacaqdır. Ünvan: Bakı, Kolyubakinski küçədə “Azərbaycan” idarəsi”. “Azərbaycan” öz vədinə sadiq qaldı və oktyabrın 7-də Bakıda rus dilində ilk nəşrini oxuculara təqdim etdi.

Bakıdakı ilk ünvanında “Azərbaycan” qəzetinin redaksiyası 1918-ci ilin 3 oktyabrından 28 noyabrınadək fəaliyyət göstərdi. Qəzetin 29-cu nömrəsindən isə ünvan belə qeyd olundu: “Məhəlli-idarə: Bakı, Voronsovski və Qubernski küçələrinin küncündə 4 nömrəli evdə. “Azərbaycan” idarəsi” (indiki İslam Səfərli ilə Nizami küçələrinin kəsişməsində yerləşən, 1867-1895-ci illərdə milyonçu Mantaşevin sifarişi ilə İtaliya memarlıq üslubunu özündə yaşadan üçmərtəbəli yaşayış binası).

Altıncı nömrəsinədək qəzet “Heyəti-təhririyyə” (redaksiya heyəti) imzası ilə çıxdı. Noyabrın 28-dən Azərbaycan dilində olan nömrələr Ceyhun bəy Hacıbəylinin, rus dilində olan nömrələr Şəfi bəy Rüstəmbəylinin redaktorluğu ilə təqdim olundu. Azərbaycan və rus dillərində nəşrlərdə bir-birindən tərcümə deyil, fərqli materiallar verilirdi.

1918-ci il dekabrın 31-dək qəzetin ana dilində 75, rusca 70 nömrəsi işıq üzü gördü. “Azərbaycan” qəzeti adını daşıdığı müstəqil Cümhuriyyət dövləti ilə birlikdə ümid dolu yeni ilə - 1919-cu ilə qədəm qoydu...

### “Bir gözəl sevdim ki, vətən dedilər!”

“Azərbaycan” XX əsrin əvvəllərində fəaliyyət göstərmiş mətbuat orqanları - “Həyat”, “İrşad”, “Füyuzat” və onların ardıcılları kimi “Türkləşmək, islamlaşmaq, müasirləşmək” ideallarını uca tuturdu. Üzeyir Hacıbəyli “Azərbaycan” qəzetinin məsləkini belə açıqlayırdı: “Danışırlar ki, “Azərbaycan” qəzeti guya “Müsavat” partiyasına məxsus firqəvi bir qəzet imiş. Bu fəqərə barəsində bunu bəyan etməyi lazım bilirəm ki, qəzetimiz partiya qəzeti deyildir. “Azərbaycan” qəzetinin məsləki Vətən istiqlalı yolunda çalışmaqdan ibarətdir”.

Qəzetin səhifələrində yer verilən yazılarda əsasən, azadlıq, istiqlal arzuları ifadə olunurdu. “Azərbaycan”ın təqdim etdiyi poeziya nümunələrində sevgili deyə vəsf edilən gözəl belə, daha çox, Vətənin özü idi. Qəzetin 25 fevral 1920-ci il tarixli sayında türkiyəli şair Feyzulla Sacid yazdığı kimi:

Sevilən gözəllər gözəl deyildir,
Bir gözəl sevdim ki, vətən dedilər!
...İnlədim, ahımı yellərə verdim,
Ağladım, ruhumu sellərə verdim,
Könlümü bu xarab ellərə verdim
Bu xarab ellərə canan dedilər.

Cəfər Cabbarlı isə “Yaşıl donlu, mavi gözlü, al duvaqlı sevdiyim” deyə müstəqil ölkəmizin başı üzərinə qaldırılan bayrağımızı vəsf edirdi. “Azərbaycan” qəzetinin 25 avqust 1919-cu ilin 260-cı nömrəsində C.Cabbarzadə imzası ilə çap edilən “Sevdiyim (Azərbaycanın bayrağına)” adlı həmin şeir müəllifin Vətəninə, məmləkətinə, bayrağına səcdəsidir:

...O yerlərdə qardaşları, dostları var, pək sevir,
Yaşıl donlu, mavi gözlü, al yanaqlı sevdiyim.
Canalıcı bir görkəmlə dağ başında durunca,
Oxşadıqca bahar yeli açıq-dağnıq tellərin.

Nazlı əlin umuzunda saçlarına vurduqca,
Bir-bir oxşayırsan bütün Turan ellərin.
Altaylardan, Altun dağdan doğma sellər bəkləyor
Yaşıl donlu, mavi gözlü, al duvaqlı sevdiyim.

Rəmuz ilə dörd bir yanə işıq saçmaq istiyor,
Ara-sıra tərpəniyor, bu kəsik uçmaq istiyor,
Qollarilə türk ellərin bütün qucmaq istiyor,
Yaşıl donlu, mavi gözlü, al duvaqlı sevdiyim.

Bu əsərdəki ali duyğular - milli qürur, Vətənə, dövlətə ülvi məhəbbət onun “Azərbaycan bayrağına” adlandırdığı, ilk dəfə Cəfər Cabbarzadə imzası ilə “Azərbaycan” *(29 avqust 1919, № 263)* qəzetində dərc etdirdiyi şeirində də təcəssümünü tapdı. Cəfər Cabbarlı istiqlalımızın əbədiliyinə, bayrağımızın daim ucalacağına inamını belə ifadə edirdi:

Buraxınız, seyr edəyim, düşünəyim, oxşayayım,
Şu sevimli üç boyalı, üç mənalı bayrağı.
Mələklərin qanadımı üzərimə kölgə salan?
Nə imiş bu, aman Allah?! Od yurdunun yarpağı!
Göy yarpaqlı, al çiçəkli yaşıl otlar topasımı?
Xayır, xayır? Çiçək solur, otlar yerdə tapdanır.
Fəqət bizim bayrağımız ucaları pək seviyor,
Yulduzlardan hilaldan da yüksəklərdə fırlanıyor.

1918-ci ilin 7 dekabrında parlamentin açılış mərasimində M.Ə.Rəsulzadə: “Səadət və hürriyyət istiqlaldır” - dedi: “İştə bunun üçün, əfəndilər, müstəqil Azərbaycanı təmsil edən o üç boyalı bayrağı Şurayi-Milli qaldırmış, türk hürriyyəti, islam mədəniyyəti və müasir Avropa iqtidarı - əhraranəsini təmsil edən bu üç boyalı bayraq daima başlarımızın üstündə ehtizaz edəcəkdir. Bir daha qaldırılmış bayraq bir daha enməyəcəkdir!”

Onun bu çıxışını Üzeyir Hacıbəyli “Azərbaycan” qəzetinin oxucularının nəzərində belə canlandırırdı: “Məhəmməd Əmin milli ittitahəsində bu üç rəngin: türkləşmək, islamlaşmaq və müasirləşmək amalı əlamətindən ibarət olduğuna işarə ilə - bu bayraq endirilməz! - dedikdə bütün məclis ayağa qalxıb əl çala-çala bayraqları salamlarkən, təəssüratı-fövqəladəmdən başımın tükləri biz-biz durdu” (“Azərbaycan” qəzeti, 1918-ci il, 9 dekabr).

Cəfər Cabbarlı isə Azərbaycan bayrağında əks olunan rənglərin mənasını “Azərbaycan bayrağına” şeirində obrazlı şəkildə belə ifadə edirdi:

Bu ay, yıldız, boyaların qurultayı nə deməK?
Bizcə böylə söyləmək!
Bu göy boya Göy Moğoldan qalmış bir türk nişanı,
Bir türk oğlu olmalı!
Yaşıl boya islamlığın sarsılmayan imanı,
Ürəklərə dolmalı!
Şu al boya azadlığın, təcəddüdün fərmanı,
Mədəniyyət bulmalı.
Səkkiz uclu şu yulduz da səkkiz hərfli OD YURDU
Əsarətin gecəsindən firsət bulmuş quş kibi,
Səhərlərə uçmuşdur
Şu hilal da türk bilgisi, düzgün sevgi nişani,
Yurdumuzu qucmuşdur!
Allah, əməllərim edib şu bayrağı intiqal,
Birər-birər doğru olmuş, bir ad almış: İSTİQLAL!
Yürəyimdə bir dilək var, o da doğru kəsilsin,
O gün olsun bir göy bayraq Turan üstə açılsın.

Ümgülsüm xanım “Türk ordusuna”, “Ey türk oğlu!”, “Çəkil, dəf ol!”, “Əsgər anasına”, “Dərdli nəğmə”, “Yurdumuzun qəhrəmanlığına”, “Yollarını bəklədim” və başqa əsərlərində milli istiqlala qovuşmanın qürurunu ifadə edirdi. “Əsgər analarına” adlı şeirində o, milli ordunun yaradılmasını, səfərbərliyə alınan Azərbaycan gənclərinin, onları yola salan anaların qəhrəmanlığını alqışlayırdı:

Annəciyim, ağlama, xeyir-dua söylə sən,
Göz yaşınla saxlama haqq yoluna gedəni.
Onun çarpan qəlbinə çalış fərəh verəsən,
Onun şux gənc həyatı qurtaracaq vətəni!

*(“Azərbaycan” qəzeti, 1919, №352).*

*(Ardı var)*

***Zöhrə FƏRƏCOVA,***
***“Azərbaycan”***

# Qafqaz Müsəlmanları İdarəsinin Qazılar Şurası Məhərrəmlik ayı ilə bağlı fətva verib

Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) Qazılar Şurası sentyabrın 4-də Məhərrəmlik ayı ilə bağlı fətva verib. AZƏRTAC xəbər verir ki, bununla bağlı keçirilən tədbirdə əvvəlcə "Qurani-Kərim"dən ayələr səsləndirilib.



Tədbirdə çıxış edən QMİ-nin sədri Şeyxülislam Allahşükür Paşazadə bildirib ki, müqəddəs aylardan olan Məhərrəm ayı Həzrət Peyğəmbərin (s) buyurduğu kimi, müharibə və münaqişələrin qadağan edildiyi aylardandır. Lakin təəssüflər olsun ki, bu ayın onuncu, yəni Aşura günü İslam tarixinə Həzrət Peyğəmbərin (s) əziz nəvəsi İmam Hüseyn əleyhissəlamın və Əhli-Beyt (ə) tərəfdarlarının haqq uğrunda şəhadətə yetişdiyi bir gün kimi daxil olub. Müsəlman ümmətinin tarixində kədərli, eyni zamanda insanlara şərəf və qürur bəxş edən Kərbəla faciəsinin nəsillərin yaddaşında əbədi yaşaması, İmam Hüseynin (ə) həyat və şəhadətinin yad edilməsi bu gün də dindarlar üçün böyük əhəmiyyət kəsb edir. Belə ki, ölkəmizdə İmam Hüseyn (ə) əzadarlığı, Peyğəmbər nəvəsinin iman, mənəviyyatın saflığı uğrunda mübarizəsinin yad edilməsi bədbinlik əhvali-ruhiyyəsinin təlqini deyil, vətən və iman sevgisinin təcəssümü, işğal olunmuş Qarabağ torpaqlarının azad edilməsi uğrunda mübarizədə fədakarlıq və dəyanət örnəyi olmalıdır.

Ölkəmizdəki dövlət din-münasibətlərindən danışan QMİ sədri deyib ki, Azərbaycan bütün din nümayəndələrinin rahat və təhlükəsiz yaşadığı bir məkandır və bu model dünya ölkələri üçün örnəkdir. Azərbaycanda sağlam düşüncəli insanların çox olduğu üçün ölkəmizdə məzhəb ayrı-seçkiliyi yaratmaq mümkün deyil. Dünyada İslam dininə xələl gətirmək istəyən qüvvələr var. Azərbaycan hər zaman bununla mübarizə aparıb və İslam həmrəyliyinə böyük töhfə verib. Təəssüf ki, bəzi qüvvələr Azərbaycanın daxili işlərinə qarışır, məzhəb ayrı-seçkiliyi, dini ayrı-seçkilik salmaq istəyirlər. Ancaq bu məkrli planlar heç vaxt baş tutmayıb və baş tutmayacaq. Çünki bizim ölkəmiz tolerant ölkədir. Bizdə dindarlar üçün hər cür şərait yaradılıb, bütün dinlərə münasibət eynidir. Bu, Azərbaycanın dövlət rəhbərinin siyasətidir və bu siyasət öz bəhrəsini verir. Müqəddəs Məhərrəm ayında dindarlarımız torpaqlarımızın bütövlüyü uğrunda canlarından keçən, o cümlədən Qarabağ, Xocalı şəhidlərinin fədakarlıq nümunəsini təlqin etməli, Ali Baş Komandanın rəhbərliyi ilə torpaqlarımızın işğaldan tezliklə azad olunması üçün dualar etməlidirlər.

Şeyxülislam Məhərrəm ayının dini qaydalara və dövlətin qanunlarına uyğun keçirilməsinin vacibliyini vurğulayıb, bu barədə axund və imamlara müvafiq tapşırıq və tövsiyələrini verib.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı çıxış edərək milli-mənəvi dəyərlərimizin inkişafı istiqamətində həyata keçirilən işlərdən danışıb, Azərbaycanda dövlət-din münasibətlərinin normal məcrada inkişaf etdiyini bildirib. Qeyd edilib ki, Aşura mərasimləri, mövcud qanunvericiliyə əsasən, məscidlərdə, ibadət ocaqlarında və onlara aid ərazilərdə ictimai asayiş qaydalarına riayət olunmaqla keçirilməlidir. Təziyə məclislərində dindarlar tərəfindən Kərbəla vaqeəsində İmam Hüseyn (ə) və onunla birlikdə şəhid olanlar yad edilməli, vətənimiz uğrunda canlarını qurban vermiş qəhrəman övladlarımızın əziz xatirəsi ehtiramla anılmalıdır. Əzadarlıq məclisləri keçirilən məkanlarda nizam-intizam gözlənilməlidir.

QMİ-nin sədr müavini Salman Musayev deyib ki, Qafqaz Müsəlmanları İdarəsinin təşəbbüsü ilə gerçəkləşən və xalqımız tərəfindən təqdir edilən tibbi ehtiyaclar üçün Kərbəla şəhidlərinin xatirəsinə qan verilməsi aksiyalarının təşkili ən münasib əzadarlıq nümunəsidir və bu örnək din xadimləri tərəfindən təbliğ edilməlidir. Ümidvarıq ki, dindarlarımız İmam Hüseyn (ə) təziyədarlığı zamanı bu humanist ənənəni davam etdirəcək, din xadimlərimiz moizələrində Kərbəla hadisələri ilə bağlı tarixi həqiqətləri, Kərbəla şəhidliyinin mahiyyətini dəqiqliklə çatdıracaqlar.

Sonra Məhərrəmlik ayı ilə bağlı fətva oxunub. Fətvada deyilir: "Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) Qazılar Şurası bəyan edir ki, hicri 1440-cı ilin başlanğıcı - Məhərrəm ayının 1-i miladi təqvimlə 2018-ci il sentyabrın 11-nə, Aşura günü isə sentyabrın 20-nə təsadüf edəcək.

Məhərrəm tarix boyu bütün səmavi dinlər tərəfindən sülh və əmin-amanlıq ayı kimi qəbul edilib, fəqət hicri 61-ci ildən etibarən bu ayın onuncu günü olan Aşura yaddaşlara tarixi ədalətsizlik və hüzn günü kimi daxil olub. Aşura hadisəsində Əməvi xəlifəsi Yezidin göstərişi ilə Həzrət Peyğəmbərin (s) əziz nəvəsi İmam Hüseyn (ə), o cümlədən Rəsulullahın (s) səhabələri, Əhli-Beyt və tərəfdarları Kərbəla çölündə şəhid edilib, ailələri əsir alınıb.

İmam Hüseynin haqq-ədalət naminə şəhadəti böyük mənəviyyat və dirçəliş nümunəsidir. Ölkəmizdə İmam Hüseyn (ə) əzadarlığı bədbinlik əhvali-ruhiyyəsinin təlqini deyil, vətən və iman sevgisinin təcəssümü, işğal olunmuş Qarabağ torpaqlarının azad edilməsi uğrunda mübarizədə dəyanət örnəyi olmalıdır. Təziyə mərasimlərində şəhidlərimizi yad etmək, onların qanlarının yerdə qalmamasını, əzəli torpaqlarımızın işğaldan azad olunmasını dua etmək müqəddəs borcumuzdur. Müsəlman ümmətinin tarixində kədərli, eyni zamanda insanlara şərəf və qürur bəxş edən Kərbəla faciəsinin, İmam Hüseynin (ə) həyat və şəhadətinin yad edilməsi bu gün də Azərbaycan dindarları tərəfindən ənənəvi olaraq yaşadılır.

Məhərrəmlik mərasimləri İmam Hüseynin (ə) şəninə uyğun və amallarına yaraşan tərzdə qeyd edilməlidir. Mövcud qanunvericiliyə əsasən, təziyə məclisləri məscidlərdə, ibadət ocaqlarında və onlara aid ərazilərdə təşkil olunmalı, ictimai asayişə mane olmamalıdır. Dini mərasim və ayinlər yalnız QMİ-nin rəsmi şəkildə təyin etdiyi din xadimləri tərəfindən idarə edilməlidir. Din xadimləri moizələrində Həzrət Hüseynin (ə) mübarizəsinin və Kərbəla faciəsinin mahiyyətini düzgün çatdırmalı, şəhidlik fəlsəfəsinin açıqlanmasına, habelə vətən təəssübü və milli mənafelərimizin təbliğinə çalışmalıdırlar. İbadət məkanlarından kənar ərazilərdə kütləvi yürüşlərə çıxmaq, özünə və ətrafdakılara xəsarət yetirə biləcək alətləri, başqa ölkələrin bayraq və digər dövlət rəmzlərini mərasimlərə gətirmək yolverilməzdir. Əzadarlıq mərasimlərində dinimizin təyin etdiyi əxlaqi meyarlara riayət olunmalıdır. Soyunmaq, zəncir vurmaqla bədənə xəsarət yetirmək və baş yarmaqla qan çıxarmaq İslam qanunlarına ziddir və İmamın, Kərbəla şəhidlərinin xatirəsinə hörmətsizlikdir. Eləcə də, təziyə məclislərində uşaqların iştirakı qeyri-məqbuldur. Allah rizası üçün İmam Hüseynə (ə) məhəbbətini izhar etmək istəyənlər bu tövsiyələrə əməl etməlidirlər. Din xadimləri Qazılar Şurasının fətvasını məscidlərdə oxumalı və bu tövsiyələrə bütün dini mərasimlərdə əməl olunmalıdır.

QMİ-nin təşəbbüsü ilə reallaşan və təziyə günlərində ehtiyacı olan xəstələr üçün təşkil edilən İmam Hüseyn xatirinə könüllü qanvermə aksiyaları cəmiyyətin təqdirini qazanıb. Respublika Səhiyyə Nazirliyi QMİ-nin başlatdığı bu kampaniyaya dəstək əlaməti olaraq məscidlərlə yanaşı, ibadət məkanlarına yaxın ərazilərdə yerləşən tibb məntəqələrində (xəstəxana və poliklinikalarda) də qanvermə aksiyalarının həyata keçirilməsini təmin edəcək. Kərbəla və Azərbaycan şəhidlərinin xatirəsinə qan verilməsinin təşkili ən münasib əzadarlıq nümunəsidir və din xadimlərimiz bu savab əməli lazımınca təbliğ etməlidirlər. Ümid edirik ki, möminlər Allaha xoş gedən bu gözəl ənənəni yaşadacaqlar və Allah-taala minlərlə xəstə insana İmam Hüseynə xatir şəfa bəxş edəcəkdir, inşallah.

Bu gün dünyada, xüsusilə də müsəlman aləmində radikal qüvvələrin terror və təxribatçılıq fəaliyyəti nəticəsində müharibə və qırğınların artdığı bir dövrdə vətənimiz Azərbaycanda dövlət və xalq birliyi sayəsində ictimai asayiş və əmin-amanlıq mövcuddur. Ölkə müsəlmanları olaraq bu nemətə görə Allah-taalaya şükürlər edirik. Konstitusiya quruluşunun əsaslarına və dövlətçiliyə qarşı təxribat xarakterli dini şüarların səsləndirilməsini, vətəndaşların din pərdəsi altında dövlətə qarşı itaətsizliyə çağırılmasını, məzhəb və etnik zəmində qarşıdurmaya təhriki qətiyyətlə pisləyir və hesab edirik ki, dövlətimiz və xalqımız belə əməllərə layiqli cavab verəcək, məkrli qüvvələrin İmam Hüseyn (ə) təziyədarlığından siyasi təxribatlar üçün istifadəsinə imkan verməyəcəkdir. Din xadimlərimizi və dindarlarımızı respublikamızdakı mövcud sabitliyin qorunması üçün çalışmağa, dindən sui-istifadə edərək məhərrəmlik mərasimlərində qarşıdurma yaratmağa çalışan qüvvələrə qarşı ayıq-sayıq olmağa çağırırıq. Din xadimləri və dindarlar mümkün hər hansı təxribatın qarşısını almaq üçün asayiş keşikçilərinə yardımçı olmalıdırlar. QMİ məzhəbindən asılı olmayaraq bütün ölkə müsəlmanlarına islami həmrəylik nümayiş etdirərək İmam Hüseyn (ə) mərasimlərində birgə iştirak etməyi, İmam (ə) və Kərbəla şəhidləri ilə yanaşı, Qarabağ, Xocalı şəhidlərimizin ruhuna dualar etməyi tövsiyə edir.

Qafqaz Müsəlmanları İdarəsinin Qazılar Şurası Azərbaycan dövlətçiliyinin əsasını qoymuş ümummilli lider Heydər Əliyevə Allah-Təaladan rəhmət diləyir, dövlətimizin siyasi-iqtisadi və mənəvi inkişafı üçün misilsiz səylər göstərən, tolerantlığın və multikultural dəyərlərin təminatçısı və himayədarı olan, dünya miqyasında İslam həmrəyliyi ideyalarını müdafiə edən dövlət başçısı İlham Əliyevin fədakar fəaliyyətinə uca Allahdan inayət arzulayır, xalqımızın əmin-amanlığı və rifahı üçün dualar edir. Allah köməyimiz olsun!"

Sonra ulu öndər Heydər Əliyevin 1995-ci ildə Təzəpir məscidində Aşura mərasimində iştirakı ilə bağlı videoxronika nümayiş etdirilib.

Daha sonra QMİ-nin yerlərdəki nümayəndələri çıxışlar ediblər.

# Sabunçu və Binəqədi rayonlarında "Dini mərasimlər: ənənəvilik və müasirlik" mövzusunda seminar-müşavirə keçirilib

Bakı şəhərinin Sabunçu və Binəqədi rayonlarında həmin rayonların icra hakimiyyətlərinin və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) birgə təşkilatçılığı ilə "Dini mərasimlər: ənənəvilik və müasirlik" mövzusunda seminar-müşavirə keçirilib.

AZƏRTAC xəbər verir ki, seminar-müşavirədə deputatlar, rayonlarda fəaliyyət göstərən dini icmaların sədrləri, dini komissiyaların üzvləri, imamlar, kənd və qəsəbələrin icra nümayəndələri, bələdiyyə sədrləri, rayon Ağsaqqallar Şurasının üzvləri iştirak ediblər.

Sabunçu rayonunda keçirilən tədbiri giriş sözü ilə açan rayon icra hakimiyyəti başçısı aparatının ictimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini - dini qurumlarla işin təşkilatçısı Ədalət Teymurov rayonda mövcud dini durum haqqında məlumat verib. Ə.Teymurov DQİDK ilə birgə həyata keçirilən maarifləndirmə tədbirlərinin əhəmiyyətindən söhbət açaraq, dövlət başçısının dini konfessiyalara daim yüksək diqqət və qayğı göstərdiyini vurğulayıb.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı çıxış edərək Dövlət Komitəsinin apardığı maarifləndirmə işi, qabaqlayıcı tədbirlər, Qafqaz Müsəlmanları İdarəsi, yerli icra strukturları və digər qurumlarla birgə səmərəli fəaliyyət barədə danışıb. Qeyd edib ki, Azərbaycanda həmişə qarşılıqlı etimada və hörmətə əsaslanan mütərəqqi milli-mədəni və dini münasibətlər mövcud olub. Azərbaycanda tarixən İslam dininin müxtəlif təriqətlərinin birgəyaşayışı mövcud olub, təriqət baxımından qarşıdurma müşahidə edilməyib. Bu gün də məscidlərdə müxtəlif təriqətlərin daşıyıcıları dini ayinlərini bir yerdə icra edirlər, bir-birinə hörmətlə yanaşırlar.

Eyni zamanda qarşıdan gələn Məhərrəm ayı və Aşura tədbirləri haqqında danışan Mübariz Qurbanlı bildirib ki, mərasimlər məscidlərdə və Qafqaz Müsəlmanları İdarəsinin fətvasına uyğun, qanun çərçivəsində, fətvada irəli sürülən tövsiyələrə riayət olunmaqla keçiriləcək. Bu və ya digər ayinlər həyata keçirilərkən qanuna əməl edilməlidir. Azərbaycan müsəlman dünyasının nümunəvi ölkəsidir. Bu mərasimlərdə xurafata heç bir halda yol vermək olmaz.

Qafqaz Müsəlmanları İdarəsinin səlahiyyətli nümayəndəsi, Nardaran qəsəbəsi "Rəhimə xanım ziyarətgahı" məscidi dini icmasının sədri Musa Qasımov, "İmam Rza" məscidi dini icmasının sədri Əmirxan Tahirov dövlət başçısının dini icmalara dini maarifləndirmə və milli-mənəvi dəyərlərimizin qorunması ilə bağlı davamlı dəstək göstərməsini, dini ibadət yerlərinin təmiri və yenilərinin tikilməsini dövlətin dinə qayğısı kimi qiymətləndiriblər. Çıxış edənlər ölkədə dini maarifləndirmə işinin gücləndirilməsinin zəruriliyini vurğulayaraq belə tədbirlərin təkcə dövlət-din münasibətlərinin inkişafına, dindarların maarifləndirilməsinə deyil, həmçinin ölkə dindarlarının dövlətə etimadının daha da artmasına xidmət etdiyini vurğulayıblar.

Sonda mövzu ətrafında müzakirələr aparılıb, dindarları narahat edən suallar cavablandırılıb.

* * *

Binəqədi Rayon İcra Hakimiyyətində keçirilən tədbiri giriş sözü ilə açan RİH-in başçısı Elxan Allahverdiyev respublikamızda mövcud olan dövlət-din münasibətləri, dinlərarası dialoq, dinlərarası tolerantlıq sahəsində həyata keçirilən dövlət siyasətindən bəhs edib. Qeyd edib ki, ulu öndər Heydər Əliyevin uzaqgörənliklə əsasını qoyduğu və bu gün möhtərəm Prezident İlham Əliyevin davam və inkişaf etdirdiyi dövlət-din münasibətləri sağlam prinsiplər üzərində qurulub. Ölkəmizdə gündəlik həyat tərzinə, milli-mənəvi dəyərlərimizin tərkib hissəsinə çevrilmiş tolerantlıq və multikultural dəyərlər bütün dünyada ən müasir və mütərəqqi cəmiyyət modeli kimi qəbul edilir.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı çıxış edərək dövlət-din münasibətlərinin dünyadakı modelləri, sovet dövründə İslam dininə yanaşma, müstəqilliyin bərpasından sonra Azərbaycan xalqının milli-mənəvi dəyərlərə qayıdışı prosesi, bəzi dairələrin İslam dininin ideoloji cəhətdən zəiflədilməsinə yönəlmiş fəaliyyətinə toxunub. Qeyd edib ki, milli-mənəvi dəyərlərin qorunması, eləcə də tolerantlıq anlayışı, multikultural ənənələrin təbliği və təşviqi Dövlət Komitəsinin dini maarifləndirmə istiqamətində gördüyü işlərin əsas istiqamətlərini təşkil edir. Əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş məqsədyönlü və uzaqgörən siyasi kursun bu gün də Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsinin sayəsində respublikamızda bütün dini konfessiyaların azad fəaliyyətinə tam şərait yaradılıb ki, bu da Azərbaycanı tolerantlıq baxımından dünyanın ən qabaqcıl ölkələri sırasına yüksəldir.

Mübariz Qurbanlı çıxışında dini radikalizmə və dini xurafata qarşı mübarizənin əhəmiyyətini və aktuallığını diqqətə çatdırıb və vurğulayıb ki, bütün problemlərin həlli dini mükəmməl şəkildə öyrənməkdir. Bu il də Məhərrəmlik mərasimlərinin Qafqaz Müsəlmanları İdarəsinin Qazılar Şurasının fətvasına uyğun keçirilməsi, qanvermə aksiyasının təşkil edilməsi planlaşdırılıb. "Yəni zəncir vurmaq, qan çıxarmaq, özünə xətər yetirmək kimi əməllər qəbul edilən deyil və bunlar sonradan meydana çıxan, uydurulmuş hərəkətlərdir. Biz də bu əməllərin əleyhinəyik. Qafqaz Müsəlmanları İdarəsi də bu cür çağırışlar edir",- deyə komitə sədri vurğulayıb.

Milli Məclisin deputatı Madər Musayev, Binəqədi Rayon İcra Hakimiyyəti başçısının müavini Aygün Əliyeva, Qafqaz Müsəlmanları İdarəsinin Binəqədi rayonu üzrə səlahiyyətli nümayəndəsi Şahbala Əliməmmədov, rayon dindarları çıxışlarında xalqımızın mənəvi dünyasını zənginləşdirən, tariximizi və mədəniyyətimizi ucaldan, birliyimizi təmin edən milli-mənəvi dəyərləri qoruyub saxlamağın əhəmiyyətindən danışıblar. Qeyd olunub ki, milli dəyərlərimizin qorunması və inkişafı ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Bu gün ümummilli lider Heydər Əliyevin yaratdığı müasir Azərbaycan onun siyasi kursunun layiqli davamçısı Prezident İlham Əliyevin rəhbərliyi ilə gələcəyə doğru inamla addımlayır. Ölkəmizdə dövlət-din münasibətləri yüksək səviyyədə qurulub və dindarlar hər zaman dövlətin maddi-mənəvi dəstəyini hiss edirlər.

Sonda tədbir iştirakçılarının sualları cavablandırılıb.

# Heydər Əliyev Fondunun təşkilatçılığı ilə Nəsimi - şeir, incəsənət və mənəviyyat festivalı keçiriləcək

Sentyabrın 27-30-da Azərbaycanda ilk dəfə olaraq Nəsimi - şeir, incəsənət və mənəviyyat festivalı keçiriləcək.




AZƏRTAC xəbər verir ki, Şərqin dahi şair və mütəfəkkirlərindən biri İmadəddin Nəsiminin (1369-1417) yaradıcılığına həsr olunan, şeir və incəsənətin yaşadılması məqsədi daşıyan festival Heydər Əliyev Fondunun təşkilatçılığı və Mədəniyyət Nazirliyinin dəstəyi ilə reallaşır.

Altı əsr əvvəl yaşamış böyük şair İmadəddin Nəsiminin şeirləri yalnız möhtəşəm söz ustalığı nümunələri deyil, onlar məna qüvvəsi və kəsərli səmimiliyi ilə hər kəsi vücudun sirri qarşısında fikrə dalmağa, qəlbin ən dərin qatlarına seyr etməyə çağırır.

Festival şairin fəlsəfi baxışlarını əks etdirən "Simadan - asimana" və onun öz kəlamından götürülən "Zərrə mənəm, günəş mənəm..." şüarları ilə keçiriləcək. Genişmiqyaslı tədbirin proqramı müxtəlif sənət növləri və bilik sahələrini əhatə edir. Festival günlərində Bakı şəhərinin müxtəlif məkanlarında, eləcə də Nəsiminin doğma diyarı Şamaxıda proqramlar təşkil olunacaq.

Festivalın ilk günü iştirakçılar şairin doğulduğu Şamaxı şəhərində İmadəddin Nəsiminin qardaşı Şaxəndanın və görkəmli şair Seyid Əzim Şirvaninin dəfn olunduğu Şaxəndan qəbiristanlığını, Qafqazda ən qədim məscidlərdən olan, 743-cü ildə inşa edilmiş Cümə Məscidini, Avaxıl kəndindəki Pir Ömər məbədini və Şamaxı Tarix-Diyarşünaslıq Muzeyini ziyarət edəcəklər.

Şamaxıda Nəsiminin heykəli önündə şeir-musiqi məclisi, həmçinin Mədəniyyət Nazirliyinin "Söz" ədəbi layihəsi çərçivəsində keçirdiyi, İmadəddin Nəsiminin xatirəsinə həsr olunmuş ədəbi müsabiqənin qaliblərinin iştirakı ilə tədbir təşkil olunacaq. Müsabiqəyə gənc şairlər Nəsimi dühasından bəhrələnərək yazdıqları əsərləri təqdim ediblər. Festival çərçivəsində, həmçinin muğam və mənəviyyata səsləyən musiqilər ifa olunacaq.

Şamaxının Meysəri kəndində "Həssas Dəb" adı altında Beynəlxalq Etik Dizayn Məntəqəsinin açılışı da keçiriləcək. "Baku" jurnalının son bir neçə ildə "Eko. Dəb marşrutu" ("ЭКО. Модный маршрут") başlığı altında davamlı dərc etdiyi materiallar əsasında qurulan məkan geyim və interyer əşyaları istehsalında ekoloji həssaslıq, təkrar emal, unudulmuş və dövriyyədən çıxan ənənəvi istehsal üsulları və texnologiyalarının bərpasına dair məlumat və maarifləndirmə, nümayiş və satış salonu funksiyalarını özündə ehtiva edəcək. Burada azərbaycanlı və xarici dizaynerlərin işləri təqdim olunacaq. Sərgidə Azərbaycanda yüz illər boyu istifadə olunan geyim üslubları, müxtəlif dövrlərdə dəbdə olmuş fərqli rənglər və milli ornamentli bəzəklərlə işlənmiş libaslar nümayiş etdiriləcək.

Daha sonra AMEA-nın Nəsirəddin Tusi adına Şamaxı Astrofizika Rəsədxanasında "Ulduzlar önündə" adlı akustik və elektron musiqi axşamı keçiriləcək. Proqramda Sahib Paşazadə, İrşad Hüseyn (Azərbaycan), Ali Phi (İran), Sati Kazanova (Rusiya), Rabih Beaini (Livan/Almaniya), Abdel Karim (Livan), "Hanoy" dueti: Nguen Le (Vyetnam/Fransa) və Ngo Hong Quang (Vyetnam), Görkem Şen (Türkiyə), "Ar Bərd" dueti (Fransa) iştirak edəcəklər.

Sentyabrın 28-də isə Bakıda, Heydər Əliyev Mərkəzində almaniyalı alim, tanınmış nəsimişünas Mixael Hessin (Michael Hess) "Nəsiminin müasir kontekstlərdə dərk edilməsi" mövzusunda mühazirəsi keçiriləcək.

Həmin gün Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA (Ətraf Mühitin Mühafizəsi Naminə Beynəlxalq Dialoq) İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə təşkil olunmuş "Canlı həyat" ("Live Life") sərgisi London, Paris, Berlin, Moskva və Tbilisidə nümayişdən sonra Bakıda Heydər Əliyev Mərkəzində təqdim olunacaq. Sərgi ətraf mühit problemlərinə, təbiətin qorunmasına diqqət çəkmək və incəsənətin bu sahədə rolu barədə ictimaiyyəti maarifləndirmək məqsədi daşıyır.

Heydər Əliyev Mərkəzində Birləşmiş Ərəb Əmirliklərinin Barcil İncəsənət Fondunun (Barjeel Foundation) təqdim etdiyi "Hürufiyyə" sərgisi isə 26 rəngkarlıq və qrafika əsərlərindən ibarət olacaq. Bu əsərlər bir sıra ərəb ölkələrində yaşayan, müasirlərimiz olan rəssamlara aiddir və "hürufiyyə" (hərflər, xəttatlıq üzərində qurulan təsvirlər) adlı, son 20 ildə geniş vüsət almış cərəyanı nümayiş etdirir. Ekspozisiyada, həmçinin Azərbaycanın əməkdar rəssamı Tərlan Qorçunun bir neçə rəsm tablosu təqdim olunacaq.

Daha sonra proqram "ambient musiqi" janrının yaradıcısı, görkəmli britaniyalı bəstəkar Brayan İnonun (Brian Eno) "77 milyon rəsm" musiqi və video-art instalyasiyası ilə davam edəcək. Bu əsər indiyədək Tokio, London, Nyu York, Buenos-Ayres, Barselona, Sidney, Mexiko, Keyptaun, Roma və digər şəhərlərdə nümayiş olunub.

Tədbirin rəsmi açılış mərasimi də Heydər Əliyev Mərkəzində keçiriləcək. Belə ki, sentyabrın 28-də axşam mərkəzdəki konsert proqramında Nəsiminin şeirləri təqdim olunacaq, muğamlardan parçalar, XIII-XIV əsr görkəmli Azərbaycan musiqiçisi Əbdülqadir Marağayinin bəstələri üzərinə gənc və orta nəsil bəstəkarların Azərbaycan Milli Konservatoriyasının nəzdindəki "Əsrlərin sədası" qədim musiqi alətləri ansamblı üçün yeni işləmələri, dahi bəstəkar Fikrət Əmirovun "Nəsimi haqqında Dastan" əsəri, Azərbaycanın əməkdar artisti Tünzalə Ağayevanın Nəsiminin sözlərinə bəstələdiyi "Dua" mahnısı səslənəcək. Konsertdə Azərbaycan əsilli, tanınmış britaniyalı müğənni Sami Yusif də çıxış edəcək.

Festivalın həmin günü Kamera və Orqan musiqisi zalında Azərbaycanın əməkdar artistləri Rain Sultanov və İsfar Sarabskinin mənəviyyat və əbədi dəyərləri vəsf edən "Silsilə" ("Cycle") musiqi layihəsinin təqdimatı ilə başa çatacaq. Bu layihədə İsfar Sarabski fortepiano ilə yanaşı, orqanda caz musiqisi ifa edəcək.

Sentyabrın 29-da Heydər Əliyev Mərkəzində tanınmış yoqa ustası Nandan Qautam (Nandan Gautam) ilə "Bədii yoqa sessiyası" keçiriləcək. N.Qautamın keçirdiyi məşğələni özünün müəllifi olduğu musiqi müşayiət edəcək.

Sentyabrın 29-da, həmçinin Şirvanşahlar sarayında görkəmli alman bəstəkarı Karlhayns Ştokhauzenin (Karlheinz Stockhausen) "Yeddi gündən" ("Aus deb sieben Tagen") əsərini beynəlxalq musiqiçilərdən ibarət heyət kollektiv improvizasiya şəklində ifa edəcək. Bəstəkar əsərdə bir not belə yazmadan, öz vəzifəsini ifaçıları mənəvi cəhətdən ruhlandıran mətnlər tərtib etməkdə görüb. Musiqiçilər həmin mətnləri oxuyaraq sərbəst improvizələr edir və bu prosesdə onlar həm müəllifdən, həm də bir-birinin ifasından ilhamlanmış olurlar. Musiqiçilərin eyni məkanda deyil, saray kompleksinin bir-birindən aralı müxtəlif guşələrində yerləşdirilməsi sanki xəlvətlikdə, tənhalıqda həqiqəti dərketməni təcəssüm etdirir. Müasir kommunikasiya vasitələri ilə bu ayrı-ayrı musiqi ifaları birləşdirilib, internet vasitəsilə canlı yayımlanacaq. Layihədə fərqli mədəniyyət və üslubları təmsil edən musiqiçilər - Azərbaycandan əməkdar artistlər Elçin Şirinov və Şəhriyar İmanov, skripkaçı Osman Eyublu və xarici ölkələrdən Kudsi Erguner (Türkiyə), Sefudi Koyate (Qvineya), Naomi Sato ( Yaponiya), Kristina Vantsu (ABŞ/Belçika), Elizabet Harnik (Avstriya) və Canluka İadema (İtaliya) iştirak edəcəklər.

Sentyabrın 29-da, həmçinin Daş Salnamə Muzeyində dünyaşöhrətli amerikalı iqtisadçı Ceremi Rifkinin (Jeremy Rifkin) "Empatik sivilizasiya və paylaşım iqtisadiyyatı" adlı videomühazirəsi olacaq, ardınca isə sual-cavab sessiyası keçiriləcək.

Daş Salnamə Muzeyində, eyni zamanda ölməz Nəsimidən ilhamlanaraq hazırlanmış "Bahariyyə" adlı musiqi layihəsi təqdim olunacaq. Səhnədə beş muğam ifaçısı ilə yanaşı, elektron musiqi ifaçısı da çıxış edəcək; Teyyub Aslanov (xanəndə), Əliağa Sədiyev (tar), Elnur Mikayılov (kamança), Şirzad Fətəliyev (zurna və balaban), Kamran Kərimov (nağara), Fərhad Fərzəliyev (elektron musiqi və səs dizaynı).

Həmin gün, həmçinin Dənizkənarı Milli Parkda "DanceAbility" inklüziv metodu ilə rəqs edən qrupun çıxışı olacaq. "DanceAbility Azərbaycan" təşkilatının üçhəftəlik təlimləri nəticəsində ərsəyə gələcək bu çıxış zamanı həm sağlam, həm fiziki imkanları məhdud şəxslər bir araya gələrək rəqs və hərəkətlə özlərini ifadə etmək sevincini paylaşacaqlar. Bu rəqslər Bakı bulvarına Nəsiminin insanda ali və kamil bir məxluq görmək fəlsəfəsinin ruhunu gətirəcək.

Sentyabrın 30-da isə Bakının Qala qəsəbəsində istifadəsiz qalan sənaye anbarında "Açılan divar" ictimai incəsənət layihəsinin təqdimatı olacaq. Layihədə 10-dək yerli və xarici "urban art" (şəhər mühitində incəsənət) rəssamı iştirak edəcək, binanın divarları üzərində öz əsərlərini yaradacaqlar. Bunların arasında ABŞ, Cənubi Afrika, Braziliya, Belçika, İspaniya və Fransa rəssamları olacaq. Uşaq və yeniyetmələr əsərlərin yaradılması prosesini yaxından müşahidə edib, ustad rəssamların rəhbərliyi ilə rəsmlər çəkəcəklər. Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının tələbələri daha sonra həmin eskizləri binanın divarlarına böyük ölçüdə əks etdirəcəklər.

Həmin gün "Qala" Arxeoloji-Etnoqrafik Muzey Kompleksində "Tullantıdan incəsənətə" sərgisi və "Daşın nəğməsi" layihəsi çərçivəsində yaradılmış əsərlərlə tanışlıq olacaq, Paraqvayın məşhur, uşaq və yeniyetmələrdən ibarət "Recycling" orkestrinin (tullantılardan təkrar emal olunmuş musiqi alətlərindən ibarət orkestr) konsert proqramı təqdim ediləcək.

Festival günlərində İçərişəhərin valehedici cazibəsi ilə incəsənətin qovuşması qonaqları qədim Bakıya səyahət etdirəcək. İçərişəhərdə sərgilər, instalyasiyalar, videoproyeksiyalar nümayiş olunacaq, poeziya nümunələri və musiqi səslənəcək, teatr tamaşaları təqdim ediləcək. Nəsiminin misralarına yazılmış nəzirələr İçərişəhərin dar küçə və dalanlarında qeyri-adi tərzdə - məsələn, divar üzərində xəttatlıq şəklində, yaxud səs yazısında, hətta "QR kod" texnologiyası əsasında hər hansı bir mənzərə üzərində "canlandırılaraq" izləyicinin qarşısına çıxacaq.

Festivalın sonunda Bakı Media Mərkəzində Mədəniyyət Nazirliyinin "Söz" ədəbi layihəsi çərçivəsində İmadəddin Nəsiminin xatirəsinə həsr olunan şeir müsabiqəsinin qalibləri mükafatlandırılacaq.

*Təkrar*

## "Azərişıq"ASC 2018-ci ildə tələb olunan Smart-kart tipli 3 fazalı sayğacların, abonent kartlarının və kart oxuyucuların satın alınması məqsədilə

### *açıq tender elan edir*

**Tender 1 (bir) LOT üzrə keçirilir:**

**LOT-1**

Smart-kart tipli 3 fazalı sayğacların, abonent kartlarının və kart oxuyucuların satın alinması - 400 manat

**"Azərişıq" ASC**
**VÖEN: 9900069391**
**Hesab: AZ83AIIB33020029441802068118**
**Benefisiarın Bankı: Kapital Bankın Gənclik filialı**
**Kod: 200189**
**VÖEN: 9900003611**
**Müxbir hesab №: AZ37NABZ01350100000000001944**
**SWIFT Code: AIIBAZ2X**

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə göstərilən məbləğdə iştirak haqqını qeyd olunan hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Ə.Qayıbov küçəsi, 8 ünvanında yerləşən "Azərişıq" ASC-nin inzibati binasından ala bilərlər.

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Əlaqələndirici şəxs - Rövşən Əsgərov (telefon: 440-39-93 daxili (22-33))

**İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:**

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 2 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır).*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində 2 (iki) nüsxədə (1 ədəd əsli və 1 ədəd surəti) tərtib olunmalıdır (xarici dildə olan məlumatlar Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq həyata keçiriləcəkdir (www.tender.gov.az).

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 25 sentyabr 2018-ci il saat 16:00-a qədər, ixtisas uyğunluğu prosedurunu keçmiş iddiaçılar isə tender təklifi və bank təminatını möhürlənmiş ikiqat zərfdə 02 oktyabr 2018-ci il saat 16:00-a qədər Bakı şəhəri, Ə.Qayıbov küçəsi, 8 ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim edilmiş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 03 oktyabr 2018-ci il tarixində saat 16:00-da Ələsgər Qayıbov küç. 8 ünvanında "Azərişıq" ASC-nin inzibati binasında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

# "Azərişıq" ASC-nin etdiyi yeniliklər öz bəhrəsini verir

## *Ötən ilin avqust ayı ilə müqayisədə "ASAN xidmət" vasitəsilə "Azərişıq" ASC-yə 2 dəfə artıq müraciət edilib*




"Azərişıq" ASC-nin "ASAN xidmət" vasitəsilə abonentlərə göstərdiyi xidmətlərin sırasına son aylarda əlavə üç xidmətin artırılması, həmçinin istehlakçıların enerji təchizatı sxeminin bir fazalıdan üç fazalıya keçirilməsi, abonentlərə yeni kodların verilməsi, sahibkarlıq obyektlərində istənilən səbəbdən sayğac əvəzlənməsinin yalnız və yalnız "ASAN xidmət" vasitəsilə həyata keçirilməsi avqust ayında səhmdar cəmiyyətə edilən müraciətlərin sayının artmasına səbəb olub. Eyni zamanda iyul ayının sonunda Nazirlər Kabinetinin əhali abonentlərinin elektrik şəbəkəsinə qoşulması ilə bağlı kVt-a görə vahid tarif müəyyən etməsi və buna görə əvvəlki qayda ilə müqayisədə məişət abonentlərinin elektrik şəbəkəsinə qoşulması üçün tariflərin ucuzlaşması da müraciət edənlərin sayında artıma səbəb olub. Nəhayət, elektrik avadanlıqlarının istismarı zamanı qəzalar, zədələnmələr, yanğınların qarşısının alınması üçün yeni yaradılan "İstehlakçının balansında olan elektrik şəbəkələrinə və avadanlıqlarına texniki xidmətin göstərilməsi" xidmətinə sahibkarların diqqət göstərməsi də müraciətlərin sayına müsbət mənada təsir göstərib.

Nəticədə "Azərişıq" ASC-nin göstərdiyi 13 xidmət arasında xüsusi əhəmiyyət daşıyan 150 kVt-a qədər sahibkarlıq obyektlərinin elektrik şəbəkəsinə qoşulması üçün 200-dən artıq sahibkar, evinə, bağına və ya həyətinə işıq çəkdirmək üçün isə 4 mindən artıq vətəndaş müraciət edib. İstehlakçıların balansında olan elektrik şəbəkələrinə və avadanlıqlarına texniki xidmətin göstərilməsi üçün 426, qeyri-əhali qrupuna aid istehlakçıların sayğac əvəzlənməsi üçün 1000-ə yaxın sahibkar müraciət edib.

Nəticədə istirahət ayı hesab olunmasına baxmayaraq, avqust ayında "Azərişıq" ASC-yə "ASAN xidmət" mərkəzləri vasitəsilə göstərdiyi digər xidmətlərlə birlikdə 12 mindən artıq müraciət daxil olub. Bu isə ötən ilin avqust ayı ilə müqayisədə müraciətlərin sayının 2 dəfəyədək artması deməkdir.

***"Azərbaycan"***

*Təkrar*

## "Azərişıq" ASC 2018-ci ildə ASC-yə məxsus binaların cari təmiri üzrə işlərin satın alınması məqsədilə

### *açıq tender elan edir*

**Tender 3 (üç) LOT üzrə keçirilir:**

**LOT-1**

Xəzər rayonu, Zirə qəsəbəsində yerləşən Zirə Enerji Təchizatı və Satışı İdarəsinin inzibati binasının cari təmiri üzrə işlərin satın alınması - 400 manat

**LOT-2**

Binəqədi rayonu 7-ci mkr-da yerləşən Avtonəqliyyat idarəsinin cari təmiri üzrə işlərin satın alınması - 400 manat

**LOT-3**

110/35/10 kV-luq "BMKZ" Y/s-in ərazisində yerləşən inzibati binanın cari təmiri üzrə işlərin satın alınması - 400 manat

**"Azərişıq" ASC**
**VÖEN: 9900069391**
**Hesab: AZ83AIIB33020029441802068118**
**Benefisiarın Bankı: Kapital Bankın Gənclik filialı**
**Kod: 200189**
**VÖEN: 9900003611**
**Müxbir hesab №: AZ37NABZ01350100000000001944**
**SWIFT Code: AIIBAZ2X**

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə göstərilən məbləğdə iştirak haqqını qeyd olunan hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Ələsgər Qayıbov küç. 8 ünvanında yerləşən "Azərişıq" ASC-nin inzibati binasından ala bilərlər.

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Əlaqələndirici şəxs - Aşəd Ağayev (telefon: 440-39-93 daxili (22-83))

**İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:**

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 2 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır).*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.

Sənədlər Azərbaycan dilində 2 (iki) nüsxədə (1 ədəd əsli və 1 ədəd surəti) tərtib olunmalıdır (xarici dildə olan məlumatlar Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq həyata keçiriləcəkdir (www.tender.gov.az).

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 24 sentyabr 2018-ci il saat 16:00-a qədər, ixtisas uyğunluğu prosedurunu keçmiş iddiaçılar isə tender təklifi və bank təminatını möhürlənmiş ikiqat zərfdə 01 oktyabr 2018-ci il saat 16:00-a qədər Bakı şəhəri, Ələsgər Qayıbov küç. 8 ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim edilmiş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 02 oktyabr 2018-ci il tarixində saat 16:00-da Bakı şəhəri, Ələsgər Qayıbov küç. 8 ünvanında "Azərişıq" ASC-nin inzibati binasında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

# Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçusu qəza hadisəsi zamanı həlak olmuşdur

2018-ci il sentyabr ayının 3-də saat 21:10 radələrində "Şıxlı" dövlət sərhədindən buraxılış məntəqəsinin rejim zonasında Azərbaycan Respublikasının ərazisindən Gürcüstan istiqamətində hərəkət edən GG-415-YY GEO dövlət nömrə nişanlı yük nəqliyyat vasitəsinin sürücüsü 1993-cü il təvəllüdlü GR vətəndaşı Ajevanidze Levanın idarəetməni itirməsi nəticəsində nəqliyyat vasitəsi buraxılış məntəqəsinin darvazasını sındırmış və Dövlət Sərhəd Xidmətinin həmin yerdə xidmət aparan müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu 1994-cü il təvəllüdlü çavuş Süleymanov Ələnnur Xəlilulla oğlunu vurmuşdur.

Hərbi qulluqçu aldığı xəsarətlərdən vəfat etmiş, hadisə zamanı 1 ədəd minik avtomobili əzilmiş və 2 nəfər mülki şəxsə yüngül xəsarət yetirilmişdir.

Ağır nəticələrə səbəb olan qəza hadisəsini törətmiş sürücü saxlanılmış və Qazax Rayon Polis Şöbəsinə təhvil verilmişdir. Hazırda hadisə ilə əlaqədar istintaq tədbirləri həyata keçirilir.

Dövlət Sərhəd Xidmətinin rəhbərliyi xidməti vəzifəsinin icrası zamanı həlak olmuş çavuş Süleymanov Ələnnur Xəlilulla oğlunun vəfatından kədərləndiyini bildirir, mərhumun ailə üzvlərinə və yaxınlarına dərin hüznlə başsağlığı verir.

***"Azərbaycan"***

# Beynəlxalq aləm

## HADİSƏLƏR, FAKTLAR



## "Cebi" Yaponiya sahillərinə çatdı

Yaponiyada tüğyan edən son 25 ilin ən güclü tufanı - "Cebi" nəticəsində Osakadakı Kansay beynəlxalq hava limanı su altında qalmışdır. Bu barədə "Kyodo" agentliyi xəbər verir.

Məlumata görə, uçuş-enmə zolağını və hava limanının dayanacağını, habelə terminalın alt mərtəbəsini su basmışdır. Hava limanı rayonunda küləyin sürəti saatda 209 kilometrə çatır.

Bildirilir ki, Kansay hava limanının süni adasını quru ilə birləşdirən körpüyə lövbərdə dayanan tanker çırpılmışdır. Onu su aparmışdır.

Ölkənin qərbində "Cebi" üzündən 700-dən çox aviareys ləğv edilmiş və qatarların hərəkəti dayandırılmışdır. Osakada parklar bağlanmışdır.

"Toyota" avtomobil şirkəti bütün ölkə üzrə, o cümlədən Aiti, Fukuoke və Miyage prefekturalarındakı 14 zavodda gecə növbələrini ləğv etmişdir. Bundan əlavə, Osaka və Kiotoda univermaqlar işləmir. Yüz minlərlə sakinin təxliyə ediləcəyi gözlənilir.

Son məlumata görə, təbii fəlakət nəticəsində azı 6 nəfər həlak olub.

## Aralıq dənizində 626 qaçqın xilas edildi



Aralıq dənizinin qərb hissəsində İspaniya sahillərinə çatmaq istəyən 626 qaçqın xilas edilmişdir. Bu barədə İspaniya sahil mühafizəsinin nümayəndəsi məlumat vermişdir. Onun dediyinə görə, miqrantlar Şimali Afrika ölkələrindəndir. İtaliya qaçqınlarla dolu xilasetmə gəmilərini öz limanlarına buraxmadığından bir çox afrikalı qaçqınlar Əlcəzairə, yaxud Mərakeşə yollanaraq oradan İspaniyaya üz tuturlar. Beynəlxalq Miqrasiya Təşkilatının məlumatına görə, bu ilin əvvəlindən bəri İspaniyaya 28 mindən çox qaçqın gəlmişdir.

## Əfqanıstanda 16 hərbçi həlak oldu



Əfqanıstanın şərqində "Taliban" radikal hərəkatının silahlıları ilə toqquşmalar nəticəsində ölkənin təhlükəsizlik qüvvələrinin azı 16 əməkdaşı həlak olmuş, 15-i yaralanmışdır. Bu barədə yerli "1TV" telekanalı xəbər verir.

Məlumata görə, radikallar Paktiya əyalətindəki qəzaların birinə hücum etmişlər. Döyüşlər səhərədək davam etmişdir. 13 hərbi qulluqçu və 3 polis əməkdaşı həlak olmuşdur. Taliblərdən 28 nəfər məhv edilmiş, 9-u yaralanmışdır.

Son vaxtlar Əfqanıstanın şərq və cənub əyalətlərində, habelə ölkənin şimalında ekstremistlərin mövqeləri xeyli möhkəmlənmişdir. Səhra komandirləri və taliblər tez-tez İŞİD terrorçu qruplaşması ilə sıx əlaqədə fəaliyyət göstərirlər.

Bu arada ölkənin şərqində hücum zamanı bir amerikalı hərbi qulluqçu həlak olmuş, biri yaralanmışdır. Əfqanıstandakı NATO missiyasının verdiyi məlumata görə, bu, cari ildə ölən altıncı amerikalı hərbçidir.

## Tramp Əsədi İdlibə hücumdan çəkindirir



Bəşşar Əsəd rejiminin ordusu Suriyanın İdlib əyalətinə fikirləşmədən hücum etməməlidir. Bu barədə ABŞ Prezidenti Donald Tramp Twitterdə yazmışdır: "Ruslar və iranlılar bu mümkün humanitar faciədə iştirak etməklə ağır humanitar səhvə yol verəcəklər. Nəticədə yüz minlərlə adam həlak ola bilər. Buna yol vermək olmaz". Xatırladaq ki, Suriyada müharibə 2011-ci ilin martında başlanmışdır. O vaxt hərbçilər mitinqçilərə atəş açdıqdan sonra dinc etiraz nümayişləri hərbi münaqişəyə çevrilmişdir.

BMT-nin məlumatına görə, münaqişə zamanı 400 min nəfərdən çox adam həlak olmuş, təqribən 10 milyon suriyalı evəşiyini tərk etmək məcburiyyətində qalmışdır. 4,8 milyon nəfər ölkənin hüdudlarından kənarda sığınacaq tapmışdır.

## Rusiya Google-u seçkilərə müdaxilədə ittiham etdi

Rusiyanın rabitə, informasiya texnologiyaları və kütləvi kommunikasiyalar sahəsində nəzarət üzrə federal xidməti (Roskomnadzor) Rusiyada seçkilər prosesinə müdaxilənin qəbulolunmazlığı barədə Google şirkətinə xəbərdarlıq məktubu ünvanlamışdır. Bu barədə "RİA Novosti" agentliyi xəbər verir.

Məktubda söhbət YouTube videohostinqindən gedir. Federal xidmət hesab edir ki, videohostinqin nümayiş etdirdiyi çarxlar tamaşaçıları qüvvədə olan qanunvericiliyi pozmağa çağırır. Bundan əlavə, Rusiya Mərkəzi Seçki Komissiyası da Amerika şirkətinin ünvanına analoji məktub göndərmişdir.

Google məktubların heç birinə cavab verməmişdir.

Xatırladaq ki, Rusiyada seçkilər sentyabrın 9-na planlaşdırılmışdır. Həmin gün regionların və bələdiyyələrin başçıları seçiləcək, habelə müxtəlif səviyyəli parlamentlərə, o cümlədən Dövlət Dumasına seçkilər keçiriləcək.

# Bildiriş

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi "Əlilliyi olan şəxslərin və sağlamlıq imkanları məhdud uşaqların asudə vaxtının təşkili məqsədilə onların istirahət zonalarına göndərilməsi" adlı təkrar müsabiqə keçirir. Müsabiqədə qeyri-hökumət təşkilatları, hüquqi və fiziki şəxslər iştirak edə bilərlər. İştirak haqqı yoxdur. Maraqlanan təşkilatlar müsabiqənin əsas şərtlər toplusunu və texniki tapşırığını əldə etmək üçün Bakı şəhəri, Salatın Əsgərova küçəsi, 85 ünvanına yazılı müraciət edə bilərlər. Müsabiqədə iştirak edən təşkilatların təklifləri Salatın Əsgərova küçəsi, 85 (mərtəbə-5, otaq-506) ünvanına 18 sentyabr 2018-ci il saat 18:00-dan gec olmayaraq təqdim edilməlidir. Gecikdirilmiş təkliflər qəbul olunmayacaqdır. Müsabiqə 19 sentyabr 2018-ci il saat 11:00-da Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində keçiriləcəkdir.

**Əlaqə telefonu: (012) 596-44-09.**

***Müsabiqə komissiyası***

# BİLDİRİŞ

"Bakı Metropoliteni" QSC tərəfindən "03" avqust 2018-ci il tarixdə keçirilmiş 1 lot üzrə "Bakı Metropoliteni" QSC üçün boyalar, lak, yaxma, yapışdırıcı və boya məmulatlarının açıq tender üsulu ilə satın alınmasına dair müsabiqədə "Yurd-F" MMC qalib elan olunmuşdur. Qalib gəlmiş təşkilat ilə 30.08.2018-ci il tarixdə ƏDV daxil 143887.43 (yüz qırx üç min səkkiz yüz səksən yeddi manat 43 qəpik) manat məbləğində müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

**ALLAH RƏHMƏT ELƏSİN!**

Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondundan İsaxan Vəliyev, Hacı Abdulla BDU-nun Fəlsəfə kafedrasının dosenti Hüseyn Məmmədova əzizi

**MƏRYƏM MƏMMƏDOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan

AZ 1073, Bakı şəhəri,
Mətbuat prospekti,
529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az_reklam@azeronline.com
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-63-82,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60,
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 8653
Sifariş 2576